Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 162 (8185) ŞƏNBƏ, 27 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Gələcəyin etibarlı təminatı

## Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan gəncliyi cəmiyyətin avanqard qüvvəsinə çevrilmişdir

Xalqımızın milli dəyərlərinə və dövlətçiliyə bağlı, sağlam düşüncəli, yüksək intellektli gəncliyin formalaşdırılması, onun cəmiyyət həyatının hər bir sahəsində fəallığının artırılması respublikamızda uğurla reallaşan gənclər siyasətinin əsas məqsədləridir. Bu prinsiplər əsasında görülən işlər bir sferada gənclərin öz bilik və bacarıqlarını realizə etmələrinə geniş imkanlar yaradır.

Çağdaş dövrdə gənclərlə iş sahəsində əldə olunan nailiyyətlər hər bir ölkənin inkişafının səviyyəsini, potensialını müəyyənləşdirən vacib meyarlardan biridir. Bu reallığı düzgün dəyərləndirən Azərbaycan dövləti də gənclərə hər zaman malik olduqları bacarıq, qabiliyyət və intellektual imkanlar müqabilində geniş meydan verməyin tərəfdarı kimi çıxış edir, bu təbəqəyə daim böyük diqqət və qayğı ilə yanaşır. Bu baxımdan Prezident İlham Əliyevin gənclərlə iş sahəsində həyata keçirdiyi tədbirlər Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən olunmuş gənclər siyasətinin uğurlu davamı kimi cəmiyyət tərəfindən təqdir edilir.

Ötən 16 ildə Azərbaycanda gənclər siyasəti daha da genişləndirilərək verilmiş qərarların fonunda mahiyyətcə yeni mərhələyə yüksəlib. "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" - deyən Prezident İlham Əliyev qərarları ilə Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini təsdiq edib. Ölkə rəhbərinin təsdiq etdiyi və 2005-2009-cu illərdə həyata keçirilən dövlət proqramı gənclərə olan qayğının davamı idi. Neft gəlirlərini "insan kapitalı"na çevirmək siyasətini yürüdən Prezident İlham Əliyev bu işdə də gənclərin üzərinə böyük məsuliyyət qoydu və "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı"nı təsdiqlədi. 2007-ci ili ölkədə "Gənclər ili" elan etməklə Prezident İlham Əliyev gənclərin inkişafına nə qədər böyük önəm verdiyini nümayiş etdirdi. 2011-ci ildə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının qəbul edilməsi isə gənclərə etimad və münasibətin növbəti əyani təzahürü oldu.

Bu gün gənclərin təşəbbüslərini, ideyalarını, təkliflərini, istəklərini reallaşdırmaq üçün onların hazırladıqları layihələrə xüsusi diqqətlə yanaşılır. Gənclərə öz fikirlərini daha sərbəst bildirirlər. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının tərkib hissəsi kimi yaradılan Gənclər Fondu tərəfindən mütəmadi olaraq qrant müsabiqələri elan olunur, gənclərin maraqlarına cavab verən, onların inkişafına xidmət edən və ictimai fəallığını artıran layihələr dövlət tərəfindən dəstəklənir.

Bununla yanaşı, regionlarda "Gənclər Evi"nin yaradılması, gənc ailələrin dəstəklənməsi, ipoteka şərtlərinin sadələşdirilməsi və s. gəncliyin daha həvəslə çalışmasına və dövlətçiliyin müdafiəsində fəal iştirakına əlavə stimul verib.

Hazırda 2017-2021-ci illəri əhatə edən üçüncü proqram icra olunur. Proqramın məqsədi gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir.

Prezident İlham Əliyev 26 yanvar 2015-ci il tarixli sərəncamı ilə gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nı təsdiq edib. Strategiyada göstərilir ki, Azərbaycan gəncliyi öhdəsinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirib, ölkədə gedən proseslərin önündə olub.

Strategiyanın məqsədi 2015-2025-ci illər ərzində Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycan Respublikasının mənafeləri naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır.

Ardı 3-cü səh.

## "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 3-cü və 7-ci bəndlərini rəhbər tutaraq, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun və "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1336-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

1. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 106; 2001, № 12, maddə 731; 2002, № 1, maddə 4; 2004, № 8, maddə 606, № 9, maddə 666; 2007, № 3, maddə 206, № 6, maddələr 560, 598, № 11, maddə 1078; 2008, № 8, maddə 699, № 11, maddə 960; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2013, № 12, maddə 1497; 2018, № 3, maddə 399, № 5, maddə 886, № 12 (I kitab), maddə 2481) 16-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Deputat Azərbaycan Respublikası Milli Məclisinin, yaxud onun komitə və komissiyalarının iclaslarında üzrsüz səbəbdən iştirak etmədikdə, habelə Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsində nəzərdə tutulmuş digər hallarda həmin Nizamnamə ilə müəyyən edilmiş qaydada parlamentdaxili məsuliyyətə cəlb olunur.".

2. "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 268; 2006, № 2, maddə 67; 2009, № 4, maddə 213; 2011, № 12, maddə 1078) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.0.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"5.0.1. bu Qanunun 6-cı maddəsində nəzərdə tutulmuş aktlar bu Qanunun 1-ci maddəsində göstərilən normativ hüquqi aktlara zidd olduqda;";

2.2. 6.0.1-ci maddə ləğv edilsin;

2.3. 7.2-ci maddənin ikinci cümləsində "uzadıla bilər" sözləri "uzadılır" sözü ilə əvəz edilsin;

2.4. 8.1-ci maddənin birinci cümləsində "edə bilər" sözləri "edir" sözü ilə əvəz edilsin;

2.5. 8.2-ci maddənin birinci cümləsində "apara bilər" sözləri "aparır" sözü ilə əvəz edilsin;

2.6. 8.3-cü və 8.4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"8.3. İnzibati nəzarəti həyata keçirən orqan müraciətin araşdırılması nəticəsində bələdiyyənin fəaliyyətinin qanunazidd olduğunu aşkar etdikdə, həmin fəaliyyətin dayandırılması və vurulmuş ziyanın aradan qaldırılması barədə 5 iş günü müddətində müvafiq bələdiyyəyə müraciət edir. Bələdiyyə tərəfindən həmin müraciətə 5 iş günü müddətində bələdiyyə iclasında baxılaraq nəticəsi barədə inzibati nəzarəti həyata keçirən orqana məlumat verilir.

8.4. İnzibati nəzarəti həyata keçirən orqan bu Qanunun 5.0.1-ci maddəsində nəzərdə tutulmuş hallarda və ya daxil olmuş müraciətin araşdırılması nəticəsində bələdiyyə aktının bu Qanunun 1-ci maddəsində göstərilmiş normativ hüquqi aktlara zidd olduğunu aşkar etdikdə, həmin aktın dəyişdirilməsi və ya ləğv edilməsi barədə 5 iş günü müddətində müvafiq bələdiyyəyə müraciət edir. Bələdiyyə tərəfindən həmin müraciətə 5 iş günü müddətində bələdiyyə iclasında baxılaraq nəticəsi barədə inzibati nəzarəti həyata keçirən orqana məlumat verilir.";

2.7. 8.5-ci maddəyə "15" rəqəmlərindən əvvəl "müvafiq bələdiyyəyə müraciət etdiyi gündən" sözləri əlavə edilsin;

2.8. 8.6-cı maddənin birinci cümləsindən "ağır" sözü çıxarılsın və həmin cümləyə "edilməsini" sözündən sonra "(dəyişdirilməsini)" sözü əlavə edilsin;

2.9. 8.7-ci maddəyə "cinayət" sözündən sonra "əlamətlərini" sözü əlavə edilsin və həmin maddədə "edə bilər" sözləri "edir" sözü ilə əvəz edilsin;

2.10. 9-cu maddənin ikinci cümləsində "qanunvericilik aktlarına dəyişikliklər və əlavələr" sözləri "qanunlarda dəyişikliklərin" sözləri ilə əvəz edilsin;

2.11. 10.1-ci maddədə "apara və onları öz təklif və tövsiyələri ilə birlikdə müvafiq bələdiyyələrə təqdim edə bilər" sözləri "aparır və onları öz təklif və tövsiyələri ilə birlikdə müvafiq bələdiyyələrə təqdim edir" sözləri ilə əvəz edilsin;

2.12. 11-ci maddədə ikinci halda "və ya" sözləri "və" sözü ilə əvəz edilsin;

2.13. 12-ci maddədə "Azərbaycan Respublikasının qanunvericiliyinə" sözləri "qanuna" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2019-cu il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

İcazə verin, Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə Sloveniya xalqı adından və şəxsən öz adımdan ölkənizin hərtərəfli inkişafı və rifahı ilə bağlı ən xoş arzularımı, həmçinin səmimi təbriklərimi çatdırım.

Mən tam əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətləri bizim qarşılıqlı maraqlarımız naminə gələcəkdə daha da inkişaf edəcək, güclənəcək və beləliklə dünyada sülhün, sabitliyin və anlaşmanın möhkəmlənməsinə töhfə verəcəkdir.

Möhtərəm cənab Prezident, ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Borut PAHOR,***
***Sloveniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına Myanma İttifaqı Respublikasının xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Zati-aliləri, ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Vin MYİN,***
***Myanma İttifaqı Respublikasının Prezidenti***

### "Əsrin müqaviləsi" - 25



## İlkin Neft Layihəsi xarici investorların Azərbaycana inamını artırdı

İlkin Neft Layihəsi (İNL) Xəzərin Azərbaycan sektorundakı dəniz yataqlarının müvəffəqiyyətlə işlənməsinin mümkünlüyünü nümayiş etdirmək üçün bir sınaq idi. Bu layihə öz növbəsində bir neçə hissəni əhatə edirdi. Layihə çərçivəsində Azərbaycanın neft sənayesi infrastrukturunun geniş spektrinin Qərb standartları səviyyəsində modernləşdirilməsi nəzərdə tutulurdu.

Mövcud "Çıraq-1" hasilat platforması təmir olunmalı, əslində təzədən tikilməli idi. Platformadan hasil olunacaq karbohidrogenləri sahilə çıxarmaq və ixrac etmək üçün infrastruktur qurulmalı idi.

İNL üzərinə düşən genişmiqyaslı işlərin öhdəsindən layiqincə gəldi. Belə ki, o zaman "Şelflayihətikinti" adlanan birliyin quraşdırma sahələri əsaslı təmir edildi. Yardımçı gəmi donanması (8 gəmi) modernləşdirildi. Modernləşdirmə "Azərbaycan" kran gəmisini və "İsrafil Hüseynov" borudüzən barjını da gələcək mühüm işlər üçün hazır vəziyyətə gətirdi. Zığdakı boruörtükləmə zavodu təmir olundu.

Yeni "Çıraq" platformasından çıxarılan neft və səmt qazını nəql etmək üçün sualtı xətlər tələb olunurdu. Bu məqsədlə platformadan Səngəçal terminalınadək uzunluğu 157 kilometr olan 24 düymlük boru kəməri çəkildi.

Ardı 3-cü səh.

### XV Avropa Gənclər Yay Olimpiya Festivalı



## 10-cu qızıl



### İdmançılarımız medalların sayını 23-ə çatdırdılar

XV Avropa Gənclər Yay Olimpiya Festivalında Azərbaycan idmançılarının uğurlu çıxışları davam edir. Festivalın start götürdüyü gündən müxtəlif idman oyunları üzrə keçirilən yarışlarda mübarizə aparan atletlərimiz cempionluq sevinci yaşayaraq Azərbaycan bayrağını yüksək zirvələrdə dalğalandırıblar.

Yarışların 6-cı günündə idmançılarımız ölkəmizin aktivinə daha 3 medal yazdırıblar. Cüdoçumuz Hüseyn Məmmədov (+90 kq) qızıl, gimnastımız Səməd Məmmədli gümüş, digər cüdoçumuz Məhərrəm İmamverdiyev (81 kq) bürünc medal qazanıb.

Bu qələbələri ilə idmançılarımız Azərbaycanın millisinin aktivindəki medalların sayını 23-ə çatdırıblar. Hazırda ölkəmiz 10 qızıl, 7 gümüş, 6 bürünc medalla komanda hesabında ikinci yerdə qərarlaşıb.

Bax: səh. 5

## “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” və “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1630-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” və “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1630-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” və “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” və “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2019-cu il*

## “Yüksəliş” müsabiqəsinin təsis edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İntellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə “Yüksəliş” müsabiqəsi (bundan sonra - Müsabiqə) təsis edilsin.

2. Müsabiqənin keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Fərəh Əliyeva - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri

**Təşkilat Komitəsinin üzvləri**

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının Vergilər naziri

Azad Rəhimov - Azərbaycan Respublikasının Gənclər və İdman naziri

Ceyhun Bayramov - Azərbaycan Respublikasının Təhsil naziri

Sahil Babayev - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri

Anar Ələkbərov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Ülvi Quliyev - Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Məleykə Abbaszadə - Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri

Balakişi Qasımov - İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru.

3. Bu Sərəncamın 2-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsi:

3.1. Müsabiqənin keçirilməsinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirsin;

3.2. Müsabiqə üzrə əlaqələndirmə işlərinin həyata keçirilməsi ilə əlaqədar işçi qrup yaratsın və Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavinini işçi qrupun rəhbəri təyin etsin;

3.3. Müsabiqənin keçirilməsi qaydalarını təsdiq etsin.

4. Bu Sərəncamın 3.2-ci hissəsi ilə yaradılmış işçi qrup Müsabiqənin keçirilməsini təmin edəcək qurumu müəyyən etsin.

5. Müsabiqə üzrə cari işlərin həyata keçirilməsi üçün səlahiyyətli orqan qismində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi müəyyən edilsin.

6. Müsabiqə üzrə cari işlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1.000.000 (bir milyon) manat ayrılsın.

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 6-cı hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyul 2019-cu il*

# Əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı müşavirə keçirilib





Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 oktyabr tarixli 3287 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı” çərçivəsində tapşırıqların icrası istiqamətində fəaliyyət davam etdirilir.

Tədbirlər Planının 3.4-cü bəndinin (Məşğulluğa kömək üzrə əlaqələndirmə komitələrinin fəaliyyətinin gücləndirilməsi) icrasını təmin etmək məqsədilə iyulun 26-da Baş Nazirin müavini, Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının sədri Əli Əhmədovun rəhbərliyi və komitə rəhbərlərinin iştirakı ilə ikinci müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, müşavirədə respublikada və ayrı-ayrı rayonlarda qeyri-formal məşğulluqla mübarizə sahəsində komitələr tərəfindən görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 iyul tarixli 293 nömrəli Qərarı ilə təsdiq edilmiş Məşğulluğa kömək göstərən yerli əlaqələndirmə komitələrinin Əsasnaməsi təqdim olunub.

İclasda çıxış edən Əli Əhmədov deyib ki, 2019-cu ildən etibarən Azərbaycanda əmək münasibətlərinin təkmilləşdirilməsi istiqamətində ciddi layihələr həyata keçirilməkdədir. Bu layihələrin məqsədi insanların həyat səviyyəsinin daha da yüksəldilməsi, bütövlükdə əmək münasibətlərinin tənzimlənməsi və yaxşılaşdırılması istiqamətində qarşıda duran vəzifələrin həyata keçirilməsindən ibarətdir. Baş Nazirin müavini 2019-cu ildə Prezident İlham Əliyevin sərəncamları ilə ardıcıl olaraq iki dəfə minimum əməkhaqlarının və minimum pensiyaların artırılması, dövlət tərəfindən aztəminatlı ailələrə ödənilən bir sıra güzəştlərin yüksəldilməsi və Azərbaycan vətəndaşlarının böyük kütləsinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində görülən işləri xüsusi qeyd edib. Bildirib ki, bütün bunlar, eyni zamanda, əmək münasibətlərinin təkmilləşdirilməsi məqsədlərinə xidmət edir.

Baş Nazirin müavini “Azərbaycan Respublikasının əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 mart tarixli 2760 nömrəli Sərəncamına əsasən yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası tərəfindən 2018-ci il və 2019-cu ilin birinci yarımilliyi ərzində görülmüş işlər barədə məlumat verib. Əli Əhmədov deyib ki, 2019-cu ilin ilk altı ayında əmək müqaviləsi bildirişlərinin sayı 101.551 artaraq 1 iyul tarixinə 1.503.731 nəfər təşkil edib. Xatırladaq ki, 2018-ci ildə bu göstərici 91.389 təşkil edib, ümumilikdə isə Komissiya yaranandan bəri təxminən 250.000 müqavilə artımı olub.

Həmçinin 2019-cu ilin 1 yanvar tarixinə olan məlumata görə, Vergilər Nazirliyində qeydiyyatda olan aktiv fiziki şəxs fərdi sahibkarların sayı ötən ilin əvvəli ilə müqayisədə 32.457 nəfər artaraq 361.001 nəfər, 2019-cu il 1 iyul tarixinə isə aktiv fiziki şəxs fərdi sahibkarların sayı 8.569 nəfər artaraq 369.570 nəfər təşkil edib.

Respublikada qeyri-formal məşğulluqla mübarizə çərçivəsində qanunvericilik aktlarında mühüm dəyişikliklər edilib. Belə ki, “Məşğulluq haqqında” yeni qanun qəbul olunub, işsizlikdən sığorta sisteminin tətbiqinə başlanılıb, vergi və sosial sığorta sahəsində formal məşğulluğun təşviqi ilə bağlı dəyişikliklər edilib, 2020-ci ildən respublika üzrə icbari tibbi sığortanın tətbiqi təsdiqlənib, digər normativ hüquqi aktlara dəyişiklik edilib və mühüm layihələr hazırlanıb.

Komissiya Katibliyinin rəhbəri Elnur Süleymanov komitələrlə Katiblik arasında olan əməkdaşlıqdan söz açıb. O, hər rüb Katiblik tərəfindən komitələrə rayon üzrə qeyri-formal məşğulluğun qiymətləndirilməsinə dair cədvəllərin hazırlanaraq təqdim edildiyini və bunun da yerlərdə qeyri-formal məşğulluqla mübarizədə mühüm rol oynadığını vurğulayıb.

Sonda Əli Əhmədov uğurlu fəaliyyətlərinə görə “Yüksək nəticə”, “Davamlı artım”, “Etibarlı tərəfdaş” və “Fəal təşviqatçı” nominasiyaları üzrə Ağcabədi, Qəbələ, Şəki, Lənkəran, Sumqayıt, Göygöl, Zaqatala, Xaçmaz, Şəmkir, Abşeron və Qax rayon Məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrini mükafatla təltif edib.

# Nazirlər Kabinetində İranın Qızıl Aypara Cəmiyyətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri ilə görüş olub



İyulun 26-da Azərbaycan Respublikası Baş Nazirinin müavini, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Həsənov İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Əli Səccadi ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə iki dost və müsəlman ölkə olan İran ilə Azərbaycan arasındakı münasibətlərdən danışan Baş Nazirin müavini qarşılıqlı əməkdaşlıq əlaqələrinin bütün sahələrdə inkişafından məmnunluğunu ifadə edərək bu əməkdaşlığın yalnız iqtisadi sahədə deyil, humanitar sahədə də genişləndirilməsinin vacibliyini vurğulayıb. Əli Həsənov Azərbaycan-İran əlaqələrinin yüksək səviyyəyə qalxmasında Ulu Öndər Heydər Əliyevin xüsusi rolu olduğunu deyib və əlavə edib ki, bu əlaqələr Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Hər iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri əlaqələrimizin inkişafını daha da sürətləndirib.

Əsl dostluğun çətin və ağır günlərdə özünü açıq büruzə verdiyini deyən Baş Nazirin müavini Azərbaycanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən əziyyət çəkdiyi dövrdə İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin, beynəlxalq humanitar təşkilatların ölkəmizə etdikləri yardımlara görə təşəkkürünü bildirib. Ətraflı məlumata görə minnətdarlığını bildirən Əli Səccadi sabit və inkişaf edən, tərəfdaş ölkə olan Azərbaycanla əlaqələrin genişləndirilməsinə böyük maraq göstərdiklərini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

# Azərbaycan Hökuməti ilə Beynəlxalq Miqrasiya Təşkilatı arasında əlaqələr uğurla davam edir



İyulun 26-da Baş Nazirin müavini, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Həsənov Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Vladimir Qyorqiyevlə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan Hökuməti ilə Beynəlxalq Miqrasiya Təşkilatı arasındakı əlaqələrin yaxşı əsaslar üzərində qurulduğu və bu əlaqələrin bu gün də uğurla davam etdirildiyi vurğulanıb. Baş Nazirin müavini Azərbaycanın Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) bütün qurumları, o cümlədən Cenevrə bölməsi ilə sıx əməkdaşlığa malik olduğunu söyləyib. Əli Həsənov BMqT-nin Azərbaycandakı nümayəndəliyinin fəaliyyətinə toxunaraq bildirib ki, nümayəndəlik Azərbaycan Hökuməti ilə çox sıx əməkdaşlıq şəraitində ölkə üçün prioritet olan müxtəlif layihələr, proqramlar həyata keçirib. Həmin layihələrə insan alverinə qarşı mübarizə, su mənbələrinin bərpası və s. mühüm məsələlər daxildir. Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın iqtisadi və sosial göstəriciləri digər bir çox qabaqcıl ölkələri geridə qoyub. Azərbaycan bütün irqlərin, millətlərin azad yaşaya biləcəyi tam tolerant bir ölkədir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Baş Nazirin müavini bu problemin həlli ilə bağlı yaradılmış Minsk qrupunun uzun illərdir davam edən fəaliyyətinin təəssüf doğurduğunu deyib. Bildirib ki, bu vaxtadək qəbul olunan bütün sənədlər, sadəcə, kağız üzərində qalıb. Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Nüfuzlu beynəlxalq qurumların münaqişənin həllinə dair qəbul etdikləri qətnamələrin hələ də yerinə yetirilməməsi, beynəlxalq güclərin münaqişənin həllinə ikili standartlarla yanaşmaları bir daha sübut edir ki, bu, ədalətsiz mövqedir.

Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Vladimir Qyorqiyev təmsil etdiyi qurum ilə Azərbaycan Hökuməti arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Bildirib ki, Azərbaycanda inklüziv cəmiyyət qurulub. BMqT-nin ən fəal üzvlərindən biri olan Azərbaycan regionda mühüm önəm kəsb edən ölkədir, xüsusən də tranzit ölkə kimi böyük rola malikdir.

# Füzulidə şəhid ailələri ilə görüş





Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova Füzuli rayonunda şəhid ailələri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, çay süfrəsi arxasında keçirilən görüşdə Milli Məclis Sədrinin müavini Bahar Muradova və Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev şəhid ailələri ilə söhbət edib, onların sosial vəziyyəti ilə maraqlanıb, müraciətlərini dinləyiblər.

Ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışan Bahar Muradova bildirib ki, respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladları xalqımızın qəlbində daim yaşayacaq. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunub. Şəhid ailələrinə dövlət tərəfindən daim dəstək göstərilir, onlara mənzillər, minik avtomobilləri verilir. Prezident İlham Əliyevin şəhid ailələri ilə çoxsaylı görüşləri, ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə dövlət başçısının müvafiq fərmanı ilə birdəfəlik ödəmənin verilməsi bu kateqoriyadan olan insanlara diqqət və qayğının təzahürüdür.

Şəhid ailələrinin nümayəndələri göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Milli Məclis Sədrinin müavini Bahar Muradova və Füzuli rayon ictimaiyyətinin nümayəndələri daha sonra Alıxanlı kəndinə gələrək 2017-ci ildə Ermənistan ordusunun təxribatının qurbanı olan iki yaşlı Zəhra Quliyevanın və onun nənəsinin məzarını ziyarət edib, ailəsinə baş çəkiblər.

Ailə üzvləri ilə söhbət zamanı Bahar Muradova bildirib ki, 2 yaşlı Zəhranın qətlə yetirilməsi dünya ictimaiyyətinin diqqətini bir daha Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və erməni vəhşiliyinə yönəltdi. ATƏT Parlament Assambleyasının Minskdə keçirilən 26-cı illik sessiyasında Ermənistanın dinc sakinləri qətlə yetirməsi 57 ölkədən olan nümayəndələrin diqqətinə çatdırıldı. Sessiyada Zəhranın və onun nənəsinin qətlə yetirilməsi qəti şəkildə pislənildi, uşaq qatillərinin əməllərinə hüquqi qiymət verilməsi tələb olundu.

Balaca Zəhranın heç vaxt unudulmayacağını deyən Bahar Muradova Quliyevlər ailəsində daha bir uşağın anadan olmasına sevincini ifadə edib. Zəhranın atası Elnur Quliyev onlarla görüşə gəldiklərinə, daim qayğılarına qaldıqlarına görə Bahar Muradovaya və Füzuli rayon ictimaiyyətinə minnətdarlığını bildirib.

## Milli Məclis Sədrinin müavini Bahar Muradova yeni istifadəyə verilən hərbi hissədə yaradılan şəraitlə tanış olub



Milli Məclis Sədrinin müavini Bahar Muradova cəbhə bölgəsində yeni istifadəyə verilən hərbi hissədə yaradılan şəraitlə tanış olub.



AZƏRTAC xəbər verir ki, Bahar Muradova və Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev əvvəlcə Horadiz şəhərində Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə gül dəstələri qoyub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsini hörmət və ehtiramla yad ediblər.

Əsgərlər qarşısında çıxış edən Bahar Muradova Prezident, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu fəaliyyətdən, silahlı qüvvələrə göstərilən diqqət və qayğıdan danışıb, hərbi qulluqçulara çətin və şərəfli xidmətlərini yerinə yetirmələrində müvəffəqiyyətlər arzulayıb. Bildirib ki, Azərbaycanda hərbi hissələrin maddi-texniki bazasının gücləndirilməsi, ordunun döyüş qabiliyyətinin yüksəldilməsi və müasir silahlarla təminatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində hərbi və siyasi baxımdan böyük əhəmiyyət kəsb edir.

Sonra Milli Məclisin Sədr müavini hərbi hissənin ərazisində yerləşən əsgər yataqxanası, tibb məntəqəsi, ideoloji otaq, məişət otağı, yeməkxana, hamam, əşya anbarı və digər xidməti otaqlara baxış keçirib, şəxsi heyətin həyat və məişət şəraiti ilə yaxından tanış olub.

# Gələcəyin etibarlı təminatı

## Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan gəncliyi cəmiyyətin avanqard qüvvəsinə çevrilmişdir

*Əvvəli 1-ci səh.*

Bunun üçün çoxşaxəli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Yeni strategiya növbəti illərdə gənclər siyasətinin məqsədlərini, vəzifələrini və icra mexanizmlərini müəyyən edir. Bütün bunların yerinə yetirilməsi isə indiyədək qazanılmış nailiyyətlərin daha da möhkəmləndirilməsini və davamlı inkişafını təmin edəcək. Bu mənada "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" dövlət gənclər siyasətində yeni mərhələnin başlanmasından xəbər verir.

Bu il fevralın 1-də Bakı Konqres Mərkəzində keçirilən Gənclər Gününə həsr olunmuş respublika toplantısı bir həqiqətin - Azərbaycanda həyata keçirilən mütərəqqi dövlət gənclər siyasətinin növbəti təsdiqi oldu. Cənab Prezident tədbir boyu gənclərlə bir yerdə oldu, nitq söyləyərək onlara tövsiyələrini verdi. Dövlət başçısı həm də gəncləri dinlədi. Azərbaycan gənclərinin müstəqillik dövründə yaşadıqlarını, ölkəmizin ümumi inkişafına böyük töhfə verdiklərini vurğulayan Prezident İlham Əliyev dedi: *"Gənclər üçün əsas istiqamət, əlbəttə ki, təhsildir. Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Əsrlər boyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Nəyə görə?! Ona görə ki, biz həmişə öz dəyərlərimizə bağlı olmuşuq və bugünkü gənclər daim bu məsələyə çox böyük diqqət yetirsinlər".*

Həmin toplantıda İlham Əliyev gənclərə inandığını bəyan etdi, onlara uğurlar arzuladı. Bəli bu, Prezidentin gənclərə göstərdiyi böyük etimaddır. İndiyədək respublikamızda gənclərlə iş sahəsində həyata keçirilən mükəmməl dövlət siyasəti gəncliyin inkişafına böyük təkan verib, onun cəmiyyətdə özünü təsdiq etməsində böyük rol oynayıb. Gənclərimiz beynəlxalq miqyasda cərəyan edən ictimai-siyasi proseslərdə də yaxından iştirak etməklə həm dünyaya inteqrasiya olunub, həm də ölkəmizi tanıdıb. Azərbaycan gəncləri bundan sonra da dövlət siyasətindən yararlanacaq, layiqli vətəndaşlar kimi cəmiyyət həyatının bütün sahələrində fəallıq göstərəcək və bununla da onlara bəslənən etimadı hər sahədə doğruldacaqlar.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Dənizin, səmanın və meşənin ətri



Azərbaycanda turizmin inkişafı üçün imkanlar çoxdur. Bu imkanlar yalnız inkişafla, yeni salınan yollarla, ucaldılan turizm obyektlərinin sayı ilə bağlı deyil. Tariximiz, zəngin mədəni irsimiz, memarlıq abidələri qədər də turizmin inkişafına təkan vermək gücünə qadir digər mənəvi amillər mövcuddur.

Sizə nə qədər qəribə gəlsə də, istənilən əcnəbinin ölkəmizi seçməsi, bura səyahətə gəlməsi ölkənin turizm potensialından daha çox milli-mənəvi dəyərlərimizi necə qorumağımızdan, sevməyimizdən və təbliğ etməyimizdən asılıdır. Odur ki, mədəniyyətimizdə və mənəviyyatımızdakı fərqləri və üstün cəhətləri göz bəbəyi kimi qorumağı və bu keyfiyyətlərlə öyünməyi, onları yaşatmağı bacarmalıyıq.

Əgər özümüz üstünlüklərimizi dərk etməsək, onları ruhumuzda, əxlaqımızda yaşatmasaq, əcnəbilər də bu ölkəyə nabələd gəlib, nabələd gedəcəklər və bir də təkrar Bakıya, Azərbaycana qayıtmağa can atmayacaqlar.

Fərqləri sezmək, turizm tərəzisinin gözündə çəkimizi bilmək üçün İtaliyadan gələn sosioloq Litsiya və istedadlı fotoqraf Alekseylə ölkənin cənubuna - Lənkərana yola düşdük. Biz Bakıdan çıxanda dan yeri sökülürdü. Paytaxtdan bir neçə yüz kilometr aralandıqdan sonra yolun kənarında yerləşən restoranlardan birində əyləşdik. Dörd nəfərin yeməyi cəmi 8 manata başa gəlir. "Bu, əla qiymətdir, qulluq da yaxşıdır. Ofisiantlar qonaq nədirsə yaxşı bilir və nəzakətlidirlər", - Aleksey belə qiymət verir.

Yollarımızın gözəlliyi, müasirliyi də onları heyran qoyur. Hər şey heyrətamiz dərəcədə gözəldir. Müharibə şəraitində yaşayan ölkənin intibahı ağlasığmazdır. Əcnəbi səyyahlar belə fikirləşirlər. Aleksey 12 dəfə Azərbaycana baş ofisi Moskvada yerləşən "Bakı" jurnalının xətti ilə gəlib. Saysız yeniliklərin şəxsən şahididir.

Lənkəranda isə tamamilə fərqli səhnələrlə rastlaşdıq. Məqsədimiz turistlərin nə sezəcəyi, nəyə necə qiymət verəcəyi idisə, Lənkəranda gözləmədiyimiz məqamlarla rastlaşdıq, sanki bu qədim Azərbaycan şəhəri canlandı və özü hər birimizə ayrı-ayrılıqda qiymət verdi.

Bizi Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Rasilə xanım qarşılayıb Lənkəran Turizm İnformasiya Mərkəzinin direktoru İlqar Əzimova tapşırdı ki, bələdçilik etsin. Bir cənub şəhəri ilə tanışlığımız dənizin kənarındakı restoranlardan birində qonaqlar üçün açılan çay süfrəsindən başladı.

Sonra isə İlqar müəllimlə birlikdə dənizin kənarından birbaşa çay plantasiyalarına getdik, ipəkqurdunu yetişdirən kümçülərlə görüşdük, şəhəri gəzdik, dağların arasında uyuyan göl kimi əsrarəngiz su anbarına baş çəkdik.

Gözləmədiyimiz məqamlar maraqlı olduğu üçün onları da xatırlamağa dəyər. İlqar müəllim gözünün ucu ilə bizim fotokameralara baxdı. Əvvəl Alekseyə dedi ki, sənin fotokameran pis deyil, amma bununla bədii çəkiliş apara bilməzsən. Film də çəkmək mümkün deyil. İtaliyalı fotoqraf dodaqaltı qımışdı və təbəssümlə razılaşdı ki, "düzdür". Reportaj stilində işlədiyi üçün başqa kameraya ehtiyacı yoxdur. Sonra növbə mənim kameramа çatdı. Məlum oldu ki, mənim də obyektivim portretlər üçün yaramır. Bələdçimizin özünə aid olmayan sahədəki bilikləri ilə maraqlananda öyrəndik ki, sən demə, İlqar müəllim peşəkar fotoqraflardandır. Dünyanın məşhur nəşrlərindən sifarişlər alır. Təxmini hesablayanda bildim ki, onun bir obyektivinin qiyməti ikimizin fotoaparatlarının birlikdə qiymətindən bahadır. Amma hələ harasıydı, bələdçimiz beş barmağı kimi əzbər bilirdi ki, hansı vaxtda hansı yerin şəklini çəkmək olar. Hansı nöqtədən hansına kameranı tuşlamaq lazımdır. Çəkdiyi bir neçə şəkli bizə göstərəndə peşəkarlığına heyran qaldıq.

Günümüz elə maraqlı keçdi ki, axşamın necə düşdüyünü hiss etmədik.

Qayıdanda isə bizə danışdılar ki, İtaliyanın ən məşhur ətriyyatçılarından biri Mariya Kandida Lənkərana gəlib Dəmirağacının və Lənkəran meşələrinin qoxusundan ətir hazırlayıb. Sadəcə Lənkərana bircə günlük səfər bizə onu başa saldı ki, dünya nə qədər böyük olursa olsun, nə qədər gəzməli, zəngin şəhərlər olursa olsun, Azərbaycanın bir qarış torpağı onlardan geridə deyil. Əslində, dünyanın ən gözəl mənzərələri Azərbaycandadır. Bizim dağlarda bitən çiçəklərin qoxusundan Alp dağlarında bitən çiçəklərdən daha artıq gözəl ətirlər almaq mümkündür.

Bizim insanların qonaqpərvərliyindən heç yerdə yoxdur. İngilis, fransız, ya da alman başına gülləni çaxar, amma evinin son tikəsini çıxarıb məhəbbətlə süfrəyə qoymaz, qonağa verməz. Hələ alman bir yana qalsın, yeri gəlmişkən tələbəlik dostum Paşadan deyim. Drezden Texniki Universitetini bitirdikdən sonra evlənib Almaniyada qalır. 30 ildən sonra qardaşı Salman qonaq gedir. Axşam Paşa soyuducudan kolbasanı çıxardır və qardaşından soruşur ki, neçə dilim yeyəcəksən? Salmanın gözləri bərəlir, soruşur ki, necə yəni neçə dilim, doğra tök, istədiyim qədər yeyəcəyəm. Paşa deyir ki, israfçılıq sizin evinizi yıxıb, sən de nə qədər doğrayım? Salman əsəbiləşir ki, "a kişi, bu nə hərəkətdi eliyirsən, mən sənin evinə qonaq gəlmişəm axı. Sən o Paşa deyilsənmi ki, Bakı Energetika Texnikumunun yataqxanasında Bahadurla bir qazandan borş içirdin? İstəmirəm sənin kolbasanı, səhər qayıdıram Bakıya". Paşa özümüzünküdü, tam alman olmayıb hələ...

Bizim ölkəyə gələn əcnəbilər qonaqpərvərliyimizə, səmililiyimizə, əcnəbilərlə mehriban və tolerant rəftarımıza heyran qalırlar. Bizim ailə dəyərlərimiz də Avropadakı kimi deyil, bizim əxlaqımız da, qohum-əqrəbaya bağlılığımız da Qərbdəkindən fərqlidir.

Biz hamımız bir-birimizə arxayıq, güvənə bilirik, əl tutmaq Əlidən qalıb deyirik. Alman isə deyir ki, birinci özünü fikirləş, sonra başqasını. Biz bu dəyərləri də təqdim etməyi bacarmalıyıq.

**Bahadur İMANQULİYEV,**
**"Azərbaycan"**

## Azərbaycanın qonaqları daha çox Bakıda gecələməyə üstünlük verirlər

Dövlət Statistika Komitəsi mehmanxana və mehmanxana tipli müəssisələrin fəaliyyəti haqqında məlumat açıqlayıb. Bildirilir ki, cari ilin yanvar-iyun aylarında ölkə üzrə mehmanxanalarda 1 milyon 327,5 min gecələmə keçirilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3 faiz çoxdur.

Gecələmələrin 63,3 faizi Bakıda, 8,7 faizi Qəbələdə, 4 faizi Naftalanda, 3,9 faizi Qubada, 3,8 faizi Qusarda, 3,4 faizi Naxçıvan Muxtar Respublikasında, 1,6 faizi Xaçmazda, 1,3 faizi Mingəçevirdə, hər birində 0,9 faiz olmaqla Qax və Gəncədə, 8,2 faizi isə digər rayonlardakı (şəhərlərdəki) mehmanxanalarda qeydə alınmışdır.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən keçirilmiş gecələmələrin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 2 faiz artaraq 954,2 min olmuşdur ki, bu da ümumi gecələmələrin 71,9 faizini təşkil edir. Gecələmələrin 12,9 faizi Birləşmiş Ərəb Əmirlikləri, 12,2 faizi Rusiya Federasiyası, 8,7 faizi Səudiyyə Ərəbistanı, 5,9 faizi Hindistan, 5,6 faizi İsrail, 5,4 faizi Türkiyə, 5 faizi İran, 3,8 faizi Böyük Britaniya, 3,3 faizi Küveyt, 2,1 faizi ABŞ, 2 faizi Pakistan, 1,9 faizi Qətər, hər biri üzrə 1,5 faiz olmaqla Qazaxıstan və İraq, 1,3 faizi Çin, 1,2 faizi Almaniya, 25,7 faizi isə digər ölkələrin vətəndaşlarının payına düşmüşdür.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin keçirdiyi gecələmələrin 77,6 faizi Bakı şəhərində, 7,9 faizi Qəbələdə, hər birində 3,4 faiz olmaqla Naxçıvan Muxtar Respublikasında və Naftalan şəhərində, 3 faizi Qubada, 2,1 faizi Qusarda, 2,6 faizi isə digər rayon və şəhərlərdəki mehmanxanalarda qeydə alınmışdır. Azərbaycan Respublikası vətəndaşları üzrə keçirilmiş gecələmələrin sayı 2018-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 5,5 faiz artaraq 373,3 minə çatmışdır.

Cari ilin birinci yarısında mehmanxanaların gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 12,4 faiz çox və ya 187,7 milyon manat olmuşdur ki, onun da 66,1 faizi nömrələrin (otaqların) təqdim olunması üzrə xidmətlərdən, 24,8 faizi içkilər də daxil olmaqla qida məhsullarının satışı üzrə xidmətlərdən, 2,7 faizi müalicə və sağlamlıq xidmətlərindən, 6,4 faizi isə digər xidmətlərin göstərilməsindən əldə edilmişdir.

2019-cu ilin yanvar-iyun aylarında mehmanxanaların birdəfəlik tutumundan istifadə səviyyəsinin ölkə üzrə orta göstəricisi 21,6 faiz (2018-ci ilin birinci yarısında 20,8 faiz) təşkil etmişdir. Bu göstərici Şabranda 48,6, Naftalanda 47,9, Bakıda 32,9, Beyləqanda 30,9, Qəbələdə 28,2, Qubada 24,5 faiz, digər şəhər və rayonlarda isə orta ölkə göstəricisindən aşağı olmuşdur. Mehmanxanaların birdəfəlik tutumundan istifadə səviyyəsinin ən yüksək orta göstəricisi (31,7 faiz) iyun ayında qeydə alınmışdır.

## Qara Dəniz Ticarət və İnkişaf Bankının istiqrazları Bakı Fond Birjasında listinqə alınıb

"Bakı Fond Birjası" QSC-nin (BFB) Listinq Komitəsinin iyulun 26-da keçirilmiş iclasında Qara Dəniz Ticarət və İnkişaf Bankının istiqrazlarının əsas bazar seqmentində listinqə qəbul olunması qərara alınıb.

BAKI FOND BİRJASI

BFB-dən Qara Dəniz Ticarət və İnkişaf Bankının nominal dəyəri 1000 manat olan 10 min ədəd istiqrazları Bakı Fond Birjasının tiracət platformasında kütləvi təklif üsulu ilə yerləşdiriləcək. Tədavül müddəti 730 gün olan istiqrazlar üzrə illik faiz dərəcəsi 9,25 faizdir və faizlər üç təqvim ayından bir ödənilir.

Xatırladaq ki, beynəlxalq maliyyə institutlarının istiqraz emissiyasına dair Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən "Qiymətli kağızlar bazarı haqqında" Qanuna dəyişikliklər layihəsi hazırlanıb və bu dəyişikliklər fevralın 1-də qüvvəyə minib. Həmçinin fevralda beynəlxalq təşkilatların emissiyasının təşviq edilməsi məqsədilə BFB-nin listinq qaydalarına dəyişikliklər edilərək beynəlxalq maliyyə institutlarına aid daha sadə listinq tələbləri müəyyən olunub. Bu tədbirlər nəticəsində nüfuzlu beynəlxalq maliyyə institutlarından biri hesab edilən Qara Dəniz Ticarət və İnkişaf Bankının istiqrazları Azərbaycan qiymətli kağızlar bazarında ilk dəfə yerli valyutada emissiya ediləcək. Cari ilə Qara Dəniz Ticarət və İnkişaf Bankının uzunmüddətli kredit reytinqi "Standard & Poor's" tərəfindən "A-", "Moody's" tərəfindən isə "A2" dərəcəsində müəyyən olunub.

# İlkin Neft Layihəsi xarici investorların Azərbaycana inamını artırdı

*Əvvəli 1-ci səh.*

Platformadan SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) Neft Daşlarındakı qurğularınadək uzanan, diametri 16 düym olan 50 kilometrlik qaz xətti inşa edildi.

Ən vacib məsələlərdən biri "Çıraq-1"in təmiri idi. Bunun üçün görülən işlər əminliklə deməyə imkan verir ki, platforma yenidən tikildi. Belə ki, vaxtilə SOCAR-ın tikib-quraşdırdığı qurğunun mövcud dayaq bloku təmir edildi, genişləndirildi, gücləndirildi və beynəlxalq standartlara uyğun avadanlıqlarla təchiz olundu. Modulların 1035 ton ağırlığında olan dayaq çərçivəsi tikildi. Platformanın üst modulları quraşdırıldı.

Xatırladaq ki, "Çıraq" platforması Xəzərdə Bakıdan təxminən 120 kilometr şərqdə yerləşir. Burada suyun dərinliyi 120 metrə çatır. Platformanın üst modulları 19 quyuağzına malikdir və ümumi ağırlığı 8500 ton olan yükü saxlamağa qadirdir.

"Çıraq"ın 1997-ci ilin sonlarından başlanan hasilatını sualtı kəmərlər Səngəçal terminalına gətirdi. Həmin vaxtadək hazır olan terminal İNL dövründə ümumi tutumu 650 min barel olan 4 çəndən ibarət idi. Terminal sutkada 115 min barel xam nefti qəbul və emal etmək üçün layihələndirilmişdi. Obyekt eləcə də xam nefti ölçmək, onu Şimal və Qərb ixrac boru kəmərlərinə vurmaq üçün qurğulara malik idi.



İNL çərçivəsində Qara dəniz sahilində də bir terminal tikildi. Ümumi tutumu 950 min barel olan bu obyektdə 4 çən istifadəyə verilmişdi. O vaxt terminalın artıq dənizin dibi ilə çəkilmiş sualtı boru kəməri şəbəkəsi və sahildən təxminən 3 kilometr aralıda üzən yükləmə qurğusu daxil olmaqla tankerlərin doldurulması üçün avadanlıqlarla təchiz edilmiş sistemi də var idi.

İlkin Neft Layihəsi həmçinin Şimal İxrac Boru Kəməri (ŞİBK) və Qərb İxrac Boru Kəmərinin (QİBK) bərpası və tikintisini əhatə etdi. Bu boru xətlərini qısaca olaraq Bakı-Novorossiysk və Bakı-Supsa kəmərləri də adlandırırlar.

MİMP (Məcburi İşlərin Minimum Proqramı) və İNL-nin müvəffəqiyyətlə yekunlaşması bir daha nümayiş etdirdi ki, Azərbaycan xarici neft şirkətləri ilə birgə çoxşaxəli layihə olan AÇG-ni uğurla sona çatdıra biləcək. Bu ilk nailiyyətlər Azərbaycan dövlətinə xarici investorların inamını artırdı və beynəlxalq nüfuz qazandırdı. Bu gün Azərbaycanın yaratdığı mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq formatının möhkəm təməli məhz həmin dövrdə qoyuldu.

**Flora SADIQLI,**
**"Azərbaycan"**

# “Heydər Əliyev siyasi məktəbini öyrənirik” Gənc Liderlər Proqramının 2019-cu il üçün məzunları mükafatlandırılıb



Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov “Heydər Əliyev siyasi məktəbini öyrənirik” Gənc Liderlər Proqramının 2019-cu il üçün məzunlarını mükafatlandırıb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, A.Rəhimov tədbirdə çıxış edərək bu gün Gənclər və İdman Nazirliyinin yaradılmasının 25 ilinin tamam olduğunu bildirərək qurumun Azərbaycanda baş verən mürəkkəb ictimai-siyasi bir dövrdə təsis olunduğunu xatırladıb. Nazir vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıdan kimi ilk görüşü məhz həmin ilin sentyabrında Milli Məclisdə gənclərlə təşkil edib.

Azad Rəhimov bildirib: “1994-cü il iyulun 26-da təsis edilən Gənclər və İdman Nazirliyi Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılan ilk nazirlik olub. Nazirliyin yaradılması ilə Azərbaycanda gənclər və idman siyasətinin əsası qoyulub. Ulu Öndərin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrləri təhlil etsək görərik ki, gənclər və idman məsələləri daim dahi şəxsiyyətin diqqət mərkəzində olub. Heydər Əliyev bu sahəyə xüsusi həssaslıqla yanaşıb və daim öz himayəsində saxlayıb. Əbədiyaşar lider gənclərlə görüşlərində “Azərbaycanın gələcəyi gənclərdir” ifadəsini əbəs yerə işlətmirdi”.

Nazir vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyi münasibətilə Gənclər və İdman Nazirliyi və Heydər Əliyev Mərkəzi tərəfindən keçirilmiş “Heydər Əliyev siyasi məktəbini öyrənirik” Gənc Liderlər Proqramına bu gün yekun vurulur.

Qeyd edək ki, proqram çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Mədəniyyət naziri Əbülfəs Qarayev, Təhsil naziri Ceyhun Bayramov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Dövlət Təhlükəsizliyi Xidmətinin rəis müavini İlqar Musayev və Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov ilə görüşlər təşkil edilib. Seminar xarakteri daşıyan görüşlərdə gənclər dövlətimizin müxtəlif sahələrdə siyasəti ilə daha da yaxından tanış olublar. Gənclər, eyni zamanda, Ulu Öndər Heydər Əliyev ilə çiyin-çiyinə çalışmış rəhbər şəxslərdən əbədiyaşar liderin həyat və fəaliyyəti barədə dolğun məlumat alıblar.

# XİN: Ermənistanın qanunsuz fəaliyyətləri davam etdirməsi danışıqlar prosesinin pozulmasına yönəlmiş növbəti təxribatçı cəhddir

Ermənistan hakimiyyətinin yüksək vəzifəli nümayəndəsinin işğal olunmuş ərazilərimiz boyunca “cənub istiqaməti” adlandırılan yeni yolun çəkilməsi barədə verdiyi açıqlama Ermənistanın əsl niyyətinin hərbi işğala əsaslanan mövcud status-kvonu möhkəmləndirmək və münaqişənin danışıqlar yolu ilə həllinə imkan verməmək və Azərbaycanın işğal olunmuş ərazilərini ilhaq etmək olduğunun növbəti nümunəsidir.

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat açıqlamasında yer alıb.

Açıqlamada qeyd edilir ki, Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən qeyri-qanuni fəaliyyətlər, o cümlədən infrastruktur dəyişikliyinin aparılması Ermənistanın münaqişənin sülh yolu ilə həll edilməsi barədə iddialarının riyakarlıqdan və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmadığını göstərir.

“Şimal istiqaməti” adlandırılan və işğal olunmuş Kəlbəcər rayonundan çəkilmiş “Vardenis-Ağdərə” avtomobil yolu, eləcə də mərkəzi “Gorus-Laçın” avtomobil yolu təcrübəsi göstərir ki, Qubadlı və Cəbrayıl rayonlarından çəkilməsi nəzərdə tutulan yeni yol işğal altında olan bu ərazilərin təbii və digər resurslarının daha aqressiv formada talan edilməsinə xidmət edəcək.

Ümumiyyətlə, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində infrastruktur dəyişikliyi ilə bərabər, maddi-mədəni irsin məhv edilməsi, demoqrafik tərkibin dəyişdirilməsi, mineral resursların talan edilməsi və digər bu kimi qeyri-qanuni fəaliyyətlər həyata keçirir.

ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində aparılmış faktaraşdırıcı və qiymətləndirmə missiyalarının nəticəsi olaraq hazırlanmış hesabatlarda qeyri-qanuni fəaliyyətlərin sülh prosesinə ciddi təhlükə yaratdığı təsbit olunur.

2018-ci ildə hazırlanmış “Azərbaycanın Ermənistanın işğalı altında olan ərazilərində qeyri-qanuni fəaliyyətlər: Peyk məlumatları əsasında sübutlar” adlı hesabatda Ermənistanın qeyri-qanuni əməllərinin miqyası tam aydın şəkildə özünü göstərir.

Beynəlxalq humanitar hüquq, xüsusilə 1949-cu il tarixli Cenevrə Konvensiyası və Əlavə Protokollarına əsasən, işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyətlərin aparılması qadağandır. ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi işğal olunmuş ərazilərimizdə aparılan və danışıqlar prosesinə ciddi zərbə vuran qeyri-qanuni fəaliyyətləri ciddi şəkildə nəzərə almalıdırlar.

Münaqişənin həlli ilə bağlı münbit şəraitin yaradılmasına baxmayaraq, Ermənistanın atəşkəs rejiminin arxasında gizlənərək destruktiv şəkildə qeyri-qanuni fəaliyyətləri davam etdirməsi danışıqlar prosesinin pozulmasına yönəlmiş növbəti təxribatçı cəhddir. Buna görə bütün məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Beynəlxalq öhdəlikləri tapdalayaraq işğal etdiyi ərazilərdə qanunsuz əməlləri davam etdirən Ermənistanın təxribatçı hərəkətlərini kəskin qınayır və təcavüzkardan bölgəmizdə sülh, təhlükəsizlik və rifaha qarşı yönələn əməllərinə son verməyi və işğalçı qüvvələrini Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağı təkidlə tələb edirik.

İşğalçı ölkənin bu kimi təxribatçı əməllərinə müvafiq şəkildə cavab vermək hüququnu Azərbaycan özündə saxlayır.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbir görürlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Göyçay rayonunda vətəndaşları fərdi qaydada qəbul edib.

Qəbul zamanı vətəndaşlar pensiya və sosial müavinət, məşğulluğun təmin olunması, özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə biznesinə dəstəyin göstərilməsi, peşə hazırlığına cəlb edilmə, əmək hüquqlarının müdafiəsi, əlilliyin qiymətləndirilməsi, reabilitasiya xidmətləri ilə təminat, ünvanlı dövlət sosial yardımı, sosial xidmətlər və s. məsələlərlə bağlı müraciət ediblər.

Nazirliyin struktur bölmələrinin rəhbər şəxslərinin iştirakı ilə keçən qəbulda müraciətlərdə əksini tapan məsələlər ətraflı araşdırılıb və aidiyyəti üzrə tədbirlər görülüb. Bir sıra vətəndaşların özünüməşğulluq proqramına, peşə hazırlığına, bərpa müalicəsinə, reabilitasiya və sosial xidmətlərə cəlb edilmələri üçün S.Babayev tərəfindən tapşırıqlar verilib. Müraciətlərinə uyğun olaraq ayrı-ayrı vətəndaşlara işlə təmin edilmələri üçün vakant iş yerlərinə göndərişlər təqdim edilib.

❖ ❖ ❖

Kənd Təsərrüfatı naziri İnam Kərimov iyulun 26-da Gədəbəy Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Gədəbəy, Daşkəsən və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Daha sonra nazir İnam Kərimov Gədəbəy Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub, fermerlərə informasiya məsləhət xidmətinin göstərilməsində iştirak edən Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşüb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 19 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həlli üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

❖ ❖ ❖

İyulun 26-da Mədəniyyət naziri Əbülfəs Qarayev Quba rayon Heydər Əliyev Mərkəzində Quba və Qusar rayonlarından olan vətəndaşlarla görüşüb.

Həmçinin Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində Xaçmaz rayonundan, nazir müavini Rafiq Bayramov Şabran rayon Heydər Əliyev Mərkəzində Şabran və Siyəzən rayonlarından olan vətəndaşları qəbul ediblər.

Nazir Əbülfəs Qarayev Quba rayon Heydər Əliyev Mərkəzində Quba Rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə birgə təşkil olunmuş əl işləri və xalq sənətkarlıq nümunələrindən ibarət sərgi ilə tanış olduqdan sonra vətəndaşları dinləyib.

Quba və Qusar rayonlarından qəbulda iştirak edən vətəndaşlar tərəfindən Gültəpə kəndində olan Baba Məhəmməd türbəsinin təmir olunması, Qusar Dövlət Ləzgi Dram Teatrının bina şəraitinin yaxşılaşdırılması, I Nügədi məscidinin bərpası, Quba Heydər Əliyev Mərkəzinin nazirliyin balansına verilməsi, Həzrə kəndindəki Şeyx Cüneyd məqbərəsinin bərpası ilə bağlı müraciət ediblər. Həmçinin Quba rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən dram dərnəyinin xalq teatrına çevrilməsi və kollektivə milli geyimlərin verilməsi, Qırmızı qəsəbədə dağ yəhudilərinin muzeyi, habelə əməyin qiymətləndirilməsi, işlə təmin olunma və digər məsələlərlə bağlı müraciət və təkliflərini nazirə çatdırıblar.

❖ ❖ ❖

Baş prokuror Zakir Qaralov iyulun 26-da Şabran Rayon Prokurorluğunun inzibati binasında Şabran və Xaçmaz rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 13 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlərin onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

❖ ❖ ❖

İyulun 26-da Dövlət Gömrük Komitəsinin rəhbərliyi Qobustan, Şamaxı və Siyəzən rayonlarının sakinlərini, eləcə də bu bölgələrdə məskunlaşan məcburi köçkünləri qəbul edib.

Komitənin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən bildirilib ki, DGK-nın sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Qobustan şəhərində Qobustan və Şamaxı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbulda vətəndaşların yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Müraciətlər əsasən idxal-ixrac əməliyyatları zamanı rəsmiləşdirmə, gömrük orqanlarında işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

❖ ❖ ❖

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova iyulun 26-da İsmayıllı şəhərindəki Heydər Əliyev Mərkəzində İsmayıllı və Qəbələ rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbul zamanı hər bir vətəndaşın müraciət və təklifi diqqətlə dinlənilib. Müraciətlər əsasən reabilitasiya mərkəzinin açılması, boşanma və aliment məsələləri, qəyyumluq və sair məsələlərlə bağlı olub.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılması zəruri olan bir sıra müraciətlər isə qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlər qeydiyyata alınıb və həlli üçün aidiyyəti strukturlara çatdırılacağı bildirilib.

**AZƏRTAC**

# “Jara-2019” Beynəlxalq Musiqi Festivalının ikinci günündə iştirakçılar qırmızı xalının üzərindən keçiblər









İyulun 26-da “Jara-2019” Beynəlxalq Musiqi Festivalının ikinci günündə iştirakçılar qırmızı xalının üzərindən keçiblər.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva festivalın fəxri qonaqları arasında olub.

Aparıcının “Gələn il artıq beşinci, yubiley festivalı keçiriləcək, siz “Jara” festivalına nə arzulayardınız?” sualını Leyla Əliyeva belə cavablandırıb:

- Mən festival iştirakçılarına daha çox uğurlar, tamaşaçılara daha çox musiqi, daha çox sevgi diləyirəm. Festivalda daha çox adamın iştirakını arzulayıram. Çünki bu festival hamını birləşdirir. İstərdim ki, hamı rəqs etsin, şənlənsin, heç kim darıxmasın. Ən xoş arzularımı çatdırıram. Hamıya cansağlığı arzulayıram.

Qırmızı xalı üzərindən Emin Ağalarov, Stas Mixaylov, Qriqori Leps, Tamara Qverdtseteli, Slava, Stiven Siqal, Sergey Jukov, Jasmin, Diana Arbenina, Filipp Kirkorov, Brendon Stoun, Denis Klyaver, İqor Nikolayev, Aygün Kazımova, Lyubov Uspenskaya, Aleksandr Panayotov, Leonid Aqutin, Valeriya, Viktoriya Dayneko, Brilliant Dadaşova, İlqar Xəyal, Nigar Camal, “Lyube”, “Cosmos Girls”, “Novıe samotsvetı”, “Fabrika”, “Ruki Vverx”, “Otpetıe moşenniki”, “Artik & Asti” qrupları keçiblər.

Festivalın möhtəşəm keçdiyini deyən Azərbaycanın Xalq artisti Emin Ağalarov tamaşaçıları bu gün də çox zəngin proqramın gözlədiyini vurğulayıb.

Emin Ağalarov “Jara” haqqında çəkilmiş filmin təqdimatının keçirildiyini və çox maraqla qarşılandığını deyib.

Festivalın əhəmiyyətini vurğulayan Filipp Kirkorov burada tanınmış estrada ulduzlarının özlərini rahat hiss etdiklərini, tamaşaçı sevgisindən zövq aldıqlarını söyləyib. Qeyd edib ki, “Jara-2019” bu dəfə də hər kəsə müsbət əhvali-ruhiyyə bəxş edəcək. Yenidən “Jara”nın səhnəsini bölüşməyim və bu festivala böyük tamaşaçı marağının olması bizi çox sevindirir.

Qırmızı xalı üzərindən keçən ifaçılar Bakı və festival haqqında təəssüratlarını bölüşüb, yaradıcılıq yeniliklərindən söz açıblar. Onlar festivalın önəmini qeyd edib, təqdim olunacaq musiqilərin tamaşaçıların zövqünü oxşayacağını bildiriblər.

Qeyd edək ki, festivalın təşkilatçıları müğənni və bəstəkar, Azərbaycanın Xalq artisti Emin Ağalarov, Rusiyanın Əməkdar artisti Qriqori Leps, “Russkoye radio”nun və “Qızıl qrammofon” mükafatının təsisçisi Sergey Kojevnikovdur.

# Gədəbəydə ilk dəfə Milli Yaylaq Festivalı keçirilir

## Tədbirə minlərlə yerli və xarici turist qatılıb



Azərbaycanda yaylaq və elat ənənələrinin yaşadılması və təbliği məqsədilə iyulun 26-da ilk dəfə olaraq Gədəbəy rayonunda Milli Yaylaq Festivalına start verilib.

AZƏRTAC xəbər verir ki, iyulun 28-dək davam edəcək festival Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), “Cavadxan” Tarix və Mədəniyyət Fondu, Gədəbəy Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Turizm Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Atçılıq Federasiyası və Dünya Etnoidman Konfederasiyasının rəsmi dəstəyi ilə keçirilir.

Gədəbəy rayonunun ərazisində yerləşən Düzyurd-Miskinli yaylağında, unikal konsepsiya əsasında təşkil olunan Milli Yaylaq Festivalına təşkilatçı və tərəfdaş qurumların rəhbər şəxsləri, dövlət və hökumət rəsmiləri, diplomatlar, 16 ölkədən nümayəndələr, o cümlədən Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan, eləcə də yerli və xarici turistlər qatılıb.

Festivalın açılış mərasimində çıxış edən Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev iştirakçıları salamlayaraq Milli Yaylaq Festivalının təşkilində əsas məqsədinin Azərbaycan xalqının zəngin və çoxəsrlik mədəni irsinin, yüz illərlə formalaşmış yaylaq və elat mədəniyyətinin, unikal mədəniyyət nümunələrinin və tarixi abidələrinin nümayiş etdirilməsi və ərazinin turizm potensialının üzə çıxarılmasından ibarət olduğunu diqqətə çatdırıb.

Kənd Təsərrüfatı naziri İnam Kərimov isə çıxışında festivalın önəmindən danışıb. Qeyd edib ki, çoxsaylı qonaqların ilk dəfə keçirilən Milli Yaylaq Festivalına qatılması bu festivalın gələcəyindən xəbər verir. Nazir Azərbaycanın multikultural ölkə olduğunu vurğulayaraq ölkəmizdə azsaylı xalqların mehriban, dinc yanaşı yaşadığını diqqətə çatdırıb.

Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı nümayəndəliyinin koordinatoru Teoman Tiryaki çıxışında festivalın təşkilatçıları arasında olmalarından məmnunluğunu ifadə edib, tədbirə qatılan xarici ölkə nümayəndələrinin milli adət-ənənələrlə yaxından tanış olacağını vurğulayıb. Festivalın iştirakçılarda zəngin təəssürat doğuracağına əminliyini bildirən T.Tiryaki qeyd edib ki, ilk Milli Yaylaq Festivalına minlərlə iştirakçının, o cümlədən yerli və xarici turistin qatılması bu festivalın davamlı olacağından və öz məqsədinə çatacağından xəbər verir.

Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral və “Cavadxan” Tarix və Mədəniyyət Fondunun vitse-prezidenti Müzadil Həsənov çıxış edərək Milli Yaylaq Festivalının bölgədə turizmin inkişaf etdirilməsi, eləcə də qədim ənənələrin qorunub saxlanmasında oynayacağı roldan danışıblar.

Festival iştirakçılarını Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından salamlayan Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan Azərbaycanın son illərdə xeyli inkişaf etdiyini bildirib. Birinci Milli Yaylaq Festivalında iştirakından məmnun olduğunu vurğulayan Bilal Ərdoğan deyib: “Belə bir festivalın təşkili Azərbaycanda milli idman növlərinin inkişafına çox güclü dəstəyin olduğunu göstərir. Azərbaycanda xüsusilə uşaqlar, gənclər öz milli idman növlərini öyrənməli, onları yaşatmalıdırlar”.

Açılış mərasimindən sonra tədbir iştirakçıları Milli Yaylaq Festivalında adət-ənənələrlə tanış olub, milli idman növlərinə tamaşa ediblər.

Miskinli yaylağında orijinal üslubda salınan “Yaylaq yurdu” adlı etno-qəsəbədə yaşayış yurdları (alaçıqlar) ilə yanaşı, cıdır meydanı, yaylaq (kənd təsərrüfatı) bazarı, sənətkarlıq guşəsi, “Dədə Qorqud” ocağı (tamaşaçılar üçün səhnə), yaylaq yatağı (ev heyvanları üçün yerlər), pəhləvan meydanı, “Aşıq Ələsgər” ocağı, yaylaq süfrəsi və digər tematik sahələr yaradılıb.

Festival şərti olaraq mədəni-etnoqrafik, milli yaylaq (idman) oyunları, eko-etnoturizm adlı 3 hissədən ibarətdir.

Milli Yaylaq Festivalı günlərində mədəni-etnoqrafik hissədə aşıqların deyişməsi, milli rəqslər (yallılar, cəngilər), xalq mahnıları, müxtəlif xalq səhnələri və tamaşaları, əski xalq oyunları (dirədöymə, çilingağac, əzəldəyməz, müçük, aşıq-aşıq, molla mindi) təşkil olunacaq, yaylaq kulinariya nümunələri (odun üzərində bişən xörəklər - dovğa, çoban buğlaması, sacüstü kətələr, kabablar və sair) təqdim ediləcək. Həmçinin tətbiqi sənət nümunələrinin nümayişi və satış-sərgisi təşkil olunacaq. Qoçların, qurdbasarların (çoban itlərinin) və yerli yorğa atların sərgi müsabiqəsi keçiriləcək. Yaylaq və spesifik kənd təsərrüfatı mallarının yarmarkası fəaliyyət göstərəcək. Festival müddətində ölkəmizdə tolerantlıq və multikulturalizmin əyani nümayişi olaraq Azərbaycanda yaşayan müxtəlif etnik qrupların mədəni proqramları və nümunəvi çıxışları da maraqla qarşılanacaq.

Festivalın milli yaylaq (idman) oyunları şərti adı altında keçirilən hissəsində qədim kökə söykənən yorğa at yarışları (müxtəlif məsafə və kateqoriyalarda), milli güləş yarışı, çaparaq at yarışları, çoban güləşi (kəmər güləşi), nümunəvi çıxışlar, atüstü milli oyunlar - Çövkən, Baharbənd, Sürpapaq, Piyalə, Ər endir (atüstü güləş), Gərdək qaçırmaq, Zorxana, Kəndirbazlıq və ox atma təşkil olunacaq.

Yaylaq festivalının eko-etnoturizm hissəsində isə turistlər üçün köhnə ənənəvi üslubda düzəldilmiş yurdlarda qalmaq imkanı yaradılıb.

Şərti olaraq XVIII əsrin ənənəvi yaylağına səyahət də təşkil ediləcək. Belə ki, burada turistlər gün ərzində adi kənd həyatını yaşayacaqlar. Yəni, inək, qoyun-keçi otaracaq, onları sağacaq, ot biçəcək, taya düzəldəcək, atlara qulluq edəcək, nehrə çalacaq, tətbiqi sənətlə məşğul olacaq, milli xörəklərdən bişirəcək və dəyədə gecələyəcəklər. Həmçinin bölgənin məşhur yerlərinə - Koroğlu qalası, Mahrasa məbədi, Qız qalası və digər məkanlara turlar, at gəzintiləri, “Alman izləri” adlı xüsusi ekskursiyalar təşkil olunacaq.

# XV Avropa Gənclər Yay Olimpiya Festivalı





# 10 qızıl, 7 gümüş, 6 bürünc

## Səməd Məmmədlidən gümüş medal



**Dünən Milli Gimnastika Arenasında Avropa Gənclər Olimpiya Festivalı çərçivəsində idman gimnastikası üzrə final yarışları keçirilib. Gimnastika yarışlarında ölkəmizi idman gimnastlarımız Səməd Məmmədli, Mənsum Səfərov, Ağakazım Rüstəmov və Milana Minakovskaya təmsil ediblər. Təmsilçilərimiz çoxnövçülükdə və ayrı-ayrı alətlərdə finallara vəsiqə qazanmaq uğrunda mübarizə aparıblar.**



Bu yarışlarda Azərbaycan milli komandasının üzvü, gənc gimnastımız Səməd Məmmədli uğurlu nəticə göstərərək ölkəmizə daha bir gümüş medal qazandırıb.

Gimnastımız dəstəli at yarışlarında uğurla çıxış edərək 13,600 xal toplayıb. O, bu nəticə ilə gümüş medala sahib olub. Birinci yerdə isə Ukrayna idmançısı Nazar Çepurnıy (13,900 xal) qərarlaşıb. Üçüncü yeri də ukraynalı idmançı tutub. Vladimir Kostyuk 13, 533 xalla bürünc medala sahiblənib.

Səmədin daha bir final çıxışı isə sərbəst hərəkətlərdə olub. Gimnastımız bu final mərhələsində 13.733 xalla sıralamada 6-cı olub. Komanda yarışlarında gimnastlarımız ümumi xal hesabı ilə 11-ci olublar. Səməd Məmmədlinin qazandığı medal Azərbaycan gimnastlarının festivaldakı ilk uğurudur. Bunadək təmsilçilərimiz yalnız güləşlə cüdoda fərqlənmişdilər.

Qeyd edək ki, Milli Gimnastika Arenasında keçirilən yarışlarda Avropanın 37 ölkəsinin idmançıları mübarizə aparırlar. İdman gimnastikası yarışlarına bu gün yekun vurulacaq.

XV Avropa Gənclər Olimpiya Festivalı bu gün başa çatır. Bakıda keçirilən yarışların hər günü tarixə qızıl hərflərlə yazılmaqda davam edir. Dünyanın diqqət mərkəzinə çevrilən Azərbaycan 48 ölkədən 3600-dən çox 14-18 yaşlı idmançıların qatıldığı Festivala ən yüksək formada evsahibliyi etməklə bir daha istənilən beynəlxalq idman yarışlarını keçirməyə qadir olduğunu sübut etdi. Azərbaycan adını Avropa Olimpiya hərəkatının tarixinə yazdırmaqla yeni uğura imza atdı.

## Cüdoçuların zəfəri davam edir







Azərbaycan idmançıları da yarışlardakı uğurlu çıxışları, parlaq qələbələri ilə öz adlarını bu şanlı tarixə qızıl hərflərlə yazdırır və uğurla davam etdirərək ümidləri doğruldurlar. Atletlərimiz bugünə kimi ümumilikdə 23 medal (10 qızıl, 7 gümüş, 6 bürünc) qazanıblar.

Pəhləvanlarımızdan sonra medal estafetini davam etdirən cüdoçularımız son 3 gündə 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıblar. Qızıl medalı ölkəmizin aktivinə Turan Bayramov (60 kq) və Hüseyn Məmmədov (+90 kq), gümüş medalı Vüqar Talıbov (73 kq), bürünc medalları Şükran Zamanlı (55 kq), Gülşən Bəşirova (44 kq) və Məhərrəm İmamverdiyev (81 kq) yazdırıblar.

Dünən cüdoda yarışların üçüncü günündə qızlar 70 kq və +70 kq, oğlanlar 81 kq, 90 kq və +90 kq çəki dərəcələrində mübarizə aparıblar. Azərbaycanın dörd idmançısı tatami üzərinə çıxıb.

Kişilərin +90 kq çəki dərəcəsində mübarizəsində Hüseyn Məmmədov səkkizdəbir finalda Almaniya təmsilçisi Daniel Udsilauriyə ipponla qalib gələrək dörddəbir finala yüksəlib. O, bu mərhələdə yunanıstanlı Aristotelis Aris Leonidisi vazari xalı ilə məğlub edərək yarımfinala adlayıb. Hüseyn finala gedən yolda moldovalı Alin Baqrinlə qarşılaşıb və ipponla qalib gəlib. Həlledici mərhələdə cüdoçumuz rusiyalı Axmed Maqomedovla qarşılaşmadan qalib ayrılaraq Festivalı qızıl medalla başa vurub.

Digər təmsilçilərimizdən Məhərrəm İmamverdiyev (81 kq) onaltıdabir finalda rumıniyalı Vlad Topalaya (Rumıniya) ipponla qalib gəlsə də, növbəti mərhələdə ukraynalı Timur Valiyevə məğlub olub.

Təmsilçimiz təsəlliverici görüşlərdə Karl Battendən (İsveç) və Samuel Retdən (Slovakiya) üstün olmaqla, bürünc medal qazanmaq şansı əldə edib. Üçüncü yer uğrunda israilli İftaç Badaşla üz-üzə gələn Məhərrəm qalib gələrək turnirin bürünc medalına sahib olub.

Ruslan Nəsirli (90 kq) ilk görüşdə bolqarıstanlı Borislav Vladova, Nərmin Əmirli (70 kq) isə hollandiyalı Yael Van Hemstə uduzublar. Xanım cüdoçumuz təsəlliverici görüşə qatılsa da, yenə tatamidən məyus ayrılıb.

*Elçin CƏFƏROV,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

## Şirin VƏLİYEV: "Yarışlara yüksək səviyyədə hazırlaşmışıq"



"Azərbaycan Atletika Federasiyası 2008-ci ildən komandamızı formalaşdırmağa başlayıb. İlk daxili yarışlarımız Bakı birinciliyi çempionatları olub. 2014-cü ildə 125 hakim heyəti ilə Olimpiya Gənclər Oyununu keçirmişik. Ən önəmlisi odur ki, bu yarışlarda bütün hakimlər yerli nümayəndələr idi. Bu hakimləri biz seminarlar keçirərək bir-bir hazırlamışıq".

Bu sözləri Hakimlər Kollegiyasının sədri Şirin Vəliyev söyləyib.

Azərbaycanda atletika idman növünün inkişafından danışan Ş.Vəliyev deyib: "Atletika geniş idman növüdür. Burada 49 növ cəmlənir və hərəsinin öz qaydaları var. Hakimlər Kollegiyasında nümayəndələrlə vaxtaşırı iclaslar keçiririk. Biz daim axtarışdayıq. İdman Akademiyasını müvəffəqiyyətlə bitirmiş keçmiş idmançıları arayıb-axtarıb hakimliyə cəlb edirik. Biz onlara qaydaları öyrədəndən sonra imtahan edirik. İmtahandan müvəffəqiyyətlə keçənlər təcrübə toplamaq üçün yarışlara dəvət olunur. Bunun nəticəsidir ki, 2015-ci ildə I Avropa Oyunlarını uğurla keçirməyə nail olduq. 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarında 155 hakim heyəti ilə təmsil olunduq. Yarış çox yüksək səviyyədə keçdi. Hətta Avropa Kuboku yarışlarını keçirmək üçün bizi Gürcüstana dəvət etmişdilər. 2016-cı ildə Asiya Oyunlarını keçirdik. İndi isə XV Avropa Gənclər Yay Olimpiya Festivalını təşkil edirik. Yarışda iştirak edən bütün hakimlər azərbaycanlıdır. Biz bu yarışlara 6 ay öncədən hazırlaşmağa başladıq. Hazırlığımız çox yüksək səviyyədədir. Qeyd edim ki, Tofiq Bəhramov adına stadionda keçirilən atletika yarışlarında 36 ölkə və 167 azərbaycanlı hakim iştirak edir".

## Raşidat Adeleke 2 qızıl medal qazandı



Atletika yarışlarında qızlar arasında uzunluğa tullanma və şüvüllə hündürlüyə tullanmada mübarizəyə yekun vurulub.

Qızlar arasında 200 metr məsafəyə final qaçışında isə İrlandiya atleti Raşidat Adeleke fəxri kürsünün qızıl pilləsinə yüksəlib. Xatırladaq ki, bu, idmançının Bakı Festivalında ikinci çempionluğudur - o, 100 metr məsafəyə qaçışda da hamıdan sürətli olmuşdu.

## Mariya HORİELOVA: "Bakıya qızıl medal üçün gəlmişdim"



"Mən Bakıya özümdə inam hissi ilə gəlmişəm. Ancaq qaçış zolağına çıxanda güclü külək əsirdi. Bu zaman küləyə qalib gəlmək üçün özlüyümdə necə tullanacağımı planlaşdırırdım. Küləyin əks istiqamətdə əsməsi məni çətin vəziyyətə saldı. Ritmi tutmağa çətinlik çəkirdim. Bununla belə, sonadək mübarizə aparmağa çalışdım". Bunu uzunluğa tullanma üzrə qızıl medal sahibi, ukraynalı Mariya Horielova deyib.

"Rəqibim məndən irəlidə idi. Başa düşdüm ki, nə isə etmək lazımdır. Çünki Bakıya qızıl medal üçün gəlmişdim, ikinci, üçüncü yerlər məni qane etmirdi. Komanda yoldaşlarımın dəstəyi nəticəsində məndə hər şey alındı. Buna görə də onlara minnətdaram. İlk dəfədir bu cür mötəbər yarışlarda qalib oluram. Əvvəllər belə turnirlərdə iştirak etməmişəm. Təltifetmə mərasimində Ukrayna himnini eşidəndə tüklərim biz-biz oldu. Bu, mənə o qədər xoş təsir bağışladı ki, gözlərim yaşardı", - deyə idmançı bildirib.

## Çexiyalı çempionlar: "Bakıda qızıl medal qazandığımız üçün xoşbəxtik"

"XV Avropa Gənclər Yay Olimpiya Festivalında ölkəmizi layiqincə təmsil etdik. Komanda yarışlarında qızıl medal qazandıq. Çox sevinirik". Bu sözləri tennis üzrə oğlan cütlüklərin yarışında qızıl medal qazanan Metyu Uilyam Donald və Hynek Barton deyiblər.

İdmançılar qeyd ediblər ki, Bakı festivala çox yaxşı hazırlaşıb. "Bakıya qızıl medal üçün gəlmişdik. Gərgin oyunlar keçirdik. Məqsədimizə nail olduğumuza görə çox xoşbəxtik. Yarışlar üçün yaradılan şəraitə, yüksək səviyyədə təşkilatçılığa görə Azərbaycan hökumətinə təşəkkür edirik. Artıq bizim üçün Bakının xüsusi yeri var", - deyə çexiyalı tennisçilər vurğulayıblar.



## Fransalı atlet şüvüllə tullanma yarışının qalibi olub

Atletika yarışlarında şüvüllə tullanma növündə fransalı Antoni Ammirati qızıl medalın sahibi olub. Gümüş medalı finlandiyalı Yuho Alasaari, bürünc medalı belarus Dimitri Marfuşkin qazanıblar.



Qızların çəkicatma yarışında Finlandiya təmsilçisi Silya Kosonen 72,35 metr nəticə ilə çempionluğunu rəsmiləşdirib. İtaliyalı Reçele Mori ikinci, Ester İmariaqbi üçüncü pillədə qərarlaşıblar.



## Polşalı üzgüçülərin ilk qələbəsi

**Polşa üzgüçüləri Festivalda ilk qızıl medala sahib olublar. Oğlanlar arasında 50 metr məsafəyə sərbəst üzmə yarışında Mateuş Çovaniek finişə birinci çatıb.**

Finalda 22.91 saniyə nəticə göstərən idmançı üzgüçülük yarışlarında ölkəsinə ilk qızıl medalı qazandırıb. Rumıniyalı David Popoviçi (23.03 saniyə) gümüş, Niderland üzgüçüsü Tim Korstanye (23.08 saniyə) bürünc medal əldə edib.

4x100 metr məsafəyə qarışıq üzmə yarışlarında əsas mübarizə Rusiya və Böyük Britaniya idmançıları arasında gedib. Çempionluğu 3:54.27 saniyə nəticə ilə ruslar bayram ediblər. Britaniyalılar 3:57.06 saniyə göstərici ilə 2-ci olub, ilk üçlüyü Fransa üzgüçüləri (3:57.54) qapayıblar.

## Voleybol yarışlarında Rusiya-Rumıniya finalı

Dünən Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzində keçirilən qızların yarışında birinci yarımfinal oyununda Rusiya və Türkiyə milliləri finalda mübarizə aparmaq uğrunda görüşüblər.

Gərgin idman mübarizəsi şəraitində keçən oyunda Rusiya voleybolçuları rəqiblərini 3:1 (25:22, 20:25, 25:22, 25:21) hesabı ilə məğlub edərək Festivalın finalına yüksəliblər.

Həlledici qarşılaşmada onların rəqibi Rumıniya yığması olacaq. Türkiyə millisi isə yarımfinalda rumınlara məğlub olmuş İtaliya yığması ilə bürünc medal uğrunda mübarizə aparacaq.



## Çempionluğu Almaniya və Ukrayna atletləri bayram etdilər

Atletika yarışlarında qızlar arasında uzunluğa tullanma və şüvüllə hündürlüyə tullanmada mübarizəyə yekun vurulub.



Uzunluğa tullanma yarışında ukraynalı Mariya Horielova fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Norveç atleti Mia Lien gümüş, finlandiyalı Nea Lento bürünc medal qazanıb.

Qızların şüvüllə hündürlüyə tullanma yarışında isə Almaniya idmançısı Sarah Vogel bütün rəqiblərindən yüksək nəticə göstərərək adını çempionlar siyahısına yazdırıb. Gümüş medalı isə ispaniyalı atlet Klara Fernander qazanıb. Danimarkalı Klara Skriver Loesl və isveçli Rebeka Kruger isə mübarizəni bürünc medalla başa çatdırıb.











İsmayıl Şıxlı - 100

# Nəsrimizdə parlaq sima

**XX əsr Azərbaycan ədəbiyyatının ən parlaq simalarından olan İsmayıl Şıxlı mədəniyyət tariximizdə öz layiqli yerini tutmuşdur. Görkəmli pedaqoq, alim, tərcüməçi, ictimai xadim kimi tanınan İsmayıl Şıxlı ömrü boyu ləyaqətlə xalqa xidmət etmişdir. Həqiqət axtarışları, obyektivlik duyğuları, humanizm, vicdan və ədalət prinsipləri nəsr ustadını bütün şüurlu fəaliyyəti boyu tərk etməmiş, hər zaman düzgün səmtə yönəltmişdir. Sevimli yazıçımız yaddaşlarda əsl Azərbaycan ziyalısı kimi yaşamaqdadır. Fəxrlə deyə bilərik ki, İsmayıl Şıxlının yaradıcılığı bu gün də aktuallığını qoruyub saxlayır. İndi onun hər bir əsəri maraqla qarşılanır. Gənc nəslin sağlam ruhda tərbiyə olunmasında bu əsərlərin rolu böyükdür.**

## Onun yaradıcılığı insana pak duyğular aşılayır

İsmayıl Şıxlının bədii nəsrinin həmişəyaşar olmasının başlıca səbəbi onun milliliyidir. Hamımıza yaxşı məlumdur ki, uzun müddət ədəbiyyatda daha çox beynəlmiləlçilik ideyalarının tətbiq edilməsi tələb olunurdu. Ovaxtlar "millilik", "milli xarakter" anlayışlarından yan keçməyə çalışırdılar. Ancaq İsmayıl Şıxlı kimi sənətkarlarımıza bütün bunlar maneçilik törədə bilmədi. Ədibin istər hekayələrində, istərsə də romanlarında əsl Azərbaycan mühiti canlanır.



İsmayıl Şıxlı gəncliyində ədəbi fəaliyyətə şeirlə başlasa da, sonralar bir qələm sahibi kimi bədii nəsrə təmayülü güclənmişdir. Müşahidəçilik qabiliyyəti, tələbəlik illəri, İkinci Dünya müharibəsinin tez-tez dəyişən və düşündürücü hadisələrinin yaradıcılığında böyük rolu olmuşdur.

İsmayıl Şıxlı Qafqazdan Almaniyayadək davam edən şərəfli bir döyüş yolu keçmişdir. O, xatirələrində qeyd etmişdir: "...əslində, biz bu yolları dizin-dizin süründük, qarış-qarış keçdik". Müharibə mövzusunda hekayələrini yazıçı Kerç uğrundakı vuruşmalarda həlak olan, Duzlu göl deyilən yerdə dəfn edilən cəbhə dostlarının əbədi xatirəsinə ithaf etmişdir.

Ədibin "Konserv qutuları", "Həkimin nağılı", "Səhəri gözləyirdik", "Kerç sularında", "Haralısan, ay oğlan?" hekayələri oxucuda dərin təəssürat yaradan, düşündürən hekayələrdir.

"Köynək" hekayəsi ilk baxışdan sadə bir hekayədir. Süjet inkişaf etdikcə odlar-alovlar içərisindən keçmiş cəsur əsgər köynəyi oxucuya sahibini tanıdacaq konkret vasitəyə çevrilir. Bu qəbildən olan hekayələr müəllifin özünün də daxili aləmini açmağa, onu oxucuya yaxından tanıtmağa kömək edir.

"Mənim rəqibim" hekayəsini isə İsmayıl Şıxlı unudulmaz müəllimi Əli Sultanlının əziz xatirəsinə həsr etmişdir. "Mənim rəqibim" hekayəsində hər bir şey sənətkar qələmi, incə və həssas yazıçı duyumu ilə işlənmişdir.

Rəhman və Əzizə "rəqibdir", aspiranturaya bir yerə iki iddiaçı imtahan verir. Hər iki gənc istedadlıdır. Ancaq Rəhman müharibə iştirakçısıdır, şərəfli bir döyüş yolu keçmişdir. Əzizə də qayğılarla dolu arxa cəbhənin həyatını yaşamış, çətinliklərlə üzləşmiş bir insandır. Onlar hər ikisi eqoizmdən uzaq, insanpərvər, humanist insan kimi yetişən gənclərdir.

Aspirant Rəhman surətinin prototipi İsmayıl Şıxlının özüdür. Əzizə elə edir ki, üstünlük Rəhmana verilsin. Rəhman bunu biləndə aspiranturadan imtina edib kəndə qayıdır. Sonda hər iki gəncin apsiranturaya qəbul edilməsinə şərait yaradılır. Burada da gözəl müəllimlərin, xeyirxah insanların köməyi olur.

Bildiyimiz kimi, İsmayıl Şıxlı ömrünün əlli ildən çoxunu pedaqoji fəaliyyətə həsr etmişdir. Yaddaşlarda xeyirxah əməlləri ilə silinməz iz qoyan görkəmli müəllimlərdən olmuşdur.



## "Dəli Kür" - milli təfəkkürümüzün nişanəsi

Vaxtilə bir çoxları bu faktı vurğulamışdır: uzun illər Pedaqoji İnstitutda Qərbi Avropa ədəbiyyatını, antik ədəbiyyatı tədris edən, bu sahədə neçə dərsliyin müəllifi olan İsmayıl Şıxlı ədəbi ictimaiyyətə "Dəli Kür" kimi sırf milli roman təqdim etdi. Ola bilsin ki, Qərb ədəbiyyatını tədris edən müəllimin öz yaradıcılığına da Qərb ədəbiyyatının təsir göstərəcəyini düşünürdülər. Ancaq İsmayıl Şıxlı yaradıcılığı heç bir yad təsirə məruz qalmadı. "Dəli Kür" sırf milli roman olaraq ədəbiyyat tariximizdə öz layiqli yerini tutdu. Burada qəribə heç nə yoxdur. Əsl sənət əsəri milli səciyyə daşıyır. Əsl ümumbəşərilik də millilikdən başlayır. Milli xarakterdən məhrum edilən bədii obraz heç vaxt oxucuya real təsir bağışlaya bilməz, inandırıcı alınmaz.

"Dəli Kür" romanının baş qəhrəmanı Cahandar ağa o dövrün ədəbiyyatında mühüm bir hadisə, mühüm bir yenilik kimi qiymətləndirilir. Mülkədar obrazını ədəbiyyata gətirmək böyük cəsarət tələb edirdi. Sovet dönəmində bəy, mülkədar, sahibkar obrazları ancaq mənfi personaj kimi qələmə alınırdı. İsmayıl Şıxlı isə başqa yol seçdi. Cahandar ağa obrazı nə ideallaşdırılmış, nə də müsbət insani keyfiyyətlərdən məhrum edilmişdir. Beləliklə, koloritli, yaddaqalan bir obraz yaranmışdır. Müəllif bu əsərlə Azərbaycan ədəbiyyatında neorealizmin əsasını qoymuşdur.

## "Ayrılan yollar"

İsmayıl Şıxlının əsərləri bir-birinə bənzəmir, bir-birinin təkrarı deyil. Ədibin ilk irihəcmli əsəri "Ayrılan yollar" romanı olmuşdur. Bu roman 1955-ci ildə işıq üzü görmüşdür. "Ayrılan yollar" İsmayıl Şıxlının çoxplanlı roman yazmağa qadir bir yazıçı olduğunu göstərdi. Ədəbi təcrübəsinə arxalanan yazıçı hər zaman həyat həqiqətinə sadiq qaldı. Əsərdə uydurma əhvalatlar, süni vəziyyət yoxdur, mövzu ədibin yaxşı bildiyi, gördüyü həyatdan götürülmüşdür. Romanın əsasında zəngin həyat materialı dayanır.

"Ayrılan yollar" 1941-1945-ci il müharibəsindən sonra Azərbaycanda gedən dirçəlişdən bəhs edir. O dövrün gəncləri quruculuq işlərində fəal iştirak etməyə can atırdılar. Həyatda İmran, Zeynəb, Nərgiz kimi gənclər az deyildi. Müəllif göstərir ki, hər sahədə aparıcı qüvvə sayılan potensial imkanlı insan nə üçün çalışdığını, hansı məqsəd və ideal naminə mübarizə apardığını bilməlidir, kortəbii addım, düşünülməmiş hərəkət, sadəcə ümumi axına qoşulmaq cəhdi nailiyyətə yol aça bilməz.

Ali təhsil alıb ata-baba yurduna qayıdan İmran həm övladlıq borcunu, həm də vətəndaşlıq borcunu yerinə yetirməlidir. Bir mütəxəssis kimi İmranı doğma kəndinin yeniləşməsi, inkişafı çox ciddi düşündürür. İnamla irəliyə doğru hərəkət etmək istədiyi halda ciddi maneələrlə, ilk növbədə, mühafizəkar rəhbər olan Qurban Kosaoğlu ilə üzləşməli olur. Onlar əks qütblərdən çıxış edirlər. Mövqe, hərəkət və münasibətlər tədricən kəskinləşir. Ümumiyyətlə, əsər psixoloji məqamlarla zəngindir. "Ayrılan yollar" romanı həm oxucular, həm də ədəbi ictimaiyyət tərəfindən maraqla, dərin rəğbətlə qarşılanaraq, bədii nəsrimizdə öz layiqli yerini tutmuşdur.

## "Ölən dünyam" zəmanənin, dövrün ruhundan doğmuşdur

"Ölən dünyam" romanının üzərində xüsusilə dayanmaq lazımdır. "Ölən dünyam" romanı İ.Şıxlı yaradıcılığının son akkordudur. Bu roman forma baxımından ədibin əvvəlki iki romanından xeyli fərqlənir. Nisbətən kiçik həcmli bu əsərdə yazıçı əsas süjet xətti ilə bağlı müxtəlif hadisələri paralel inkişaf etdirmək hesabına və konkret zaman çərçivələrindən cəsarətlə çıxaraq, gah gələcəyə gedib, gah da keçmişə qayıtmaq sayəsində iki böyük nəslin taleyini izləməyə və ölkənin siyasi mənzərəsini canlandırmağa müvəffəq olmuşdur. Müəllifin məqsədi əsərin əsas qayəsini qabartmaq olmuşdur. Əsərin qayəsi isə belədir: Azərbaycan xalqına kənardan zorla qəbul etdirilmiş siyasi sistem onun həyatında saysız-hesabsız məhrumiyyətlərə, ölümlərə, faciələrə səbəb olur. Əsərdə bütün hadisələr real boyalarla, inandırıcı şəkildə verilmişdir.

"Ölən dünyam" romanında müəllif rəngarəng, yaddaqalan obrazlar qalereyası yaratmışdır. Ömər Koxa, Həsən ağa, Kəsəmənli, Halay bəy, Çapıq Əmrah, Güllü xanım, Söhrab kimi obrazlar oxucuda dərin rəğbət hissi oyadır.

Taleyinə məhrumiyyətlər və faciələr yazılan bu insanların hər biri güclü bir xarakterdir. Ömər Koxa dunyagörmüş müdrik bir qocadır. Ələddinin faciəli ölümünün əslində taleyin bir oyunu olduğunu yaxşı başa düşən Ömər Koxa düşmənçiliyin, qan axıdılmasının qarşısını alır, "ölən də, öldürən də özününküdür" deyərək, "dost var, düşmən var" deyib hamını təmkinli olmağa çağırır. Müdriklikdə, təmkinlikdə Güllü xanım da Ömər Koxadan geri qalmır. Ələddinin bacısı olan gəlininə Güllü xanım "kişi qızı ol, dost var, düşmən var" deyərək ona möhkəm olmağı tövsiyə edir.

Ömər Koxa ölümünün yaxınlaşdığını hiss edəndə son dərəcə müdrik hərəkət edir. Deyir ki, toyu yarımçıq qoymayın, uşaqları bir-bir çağırın, vidalaşaq. Toyu yola verəndən sonra hamıya vəfat etdiyimi elan edərsiniz. Bu, son dərəcə müdrik, alicənab bir hərəkət idi. Qeyd etmək lazımdır ki, faciəvi hadisələr də real boyalarla təsvir olunaraq oxucuda dərin təsir buraxır.

Toyu olan bədbəxt gəlin (bildiyimiz kimi, o gəlin əslində Ələddinin nişanlısı idi) Ələddinin ölümündən sonra "qoymarıq başqa yerə gedib düşəsən, öz gəlinimizsən, oğlumuzmu yoxdur" deyərək ailə onu başqa bir oğlanlarına alır. Toydan sonra evə gətirilən gəlin Ömər Koxanın vəfatından xəbər tutanda "camaat mənə ayağı ağır, qaradaban deyəcək" fikrindən əzab çəkərək özünü Kürə atmağı qərara alır.

Gördüyümüz kimi, el tənəsindən, camaatın qınağından qorxur.

Əsərdə başqa bir epizod da bu münasibəti aydın əks etdirir. Kəndə işləməyə gələn Mürsəl müəllimin qətlə yetirilməsi hadisəsi buna misaldır. Kimlərsə savad kursuna gələn qadınları, qızları Mürsəl müəllimə qısqanaraq onu öldürürlər. Səhər Mürsəl müəllimin qaldığı evdə meyiti tapılır. Əslində, onun da bir günahı yox idi. Ancaq ona xəbərdarlıq etmişdilər ki, bu kənd "zümzüməli" kənddir, ona ehtiyatla davranmağı məsləhət görmüşdülər.

İsmayıl Şıxlının hər bir əsərində təhsil məsələsinə geniş yer verilir.

Əsərdə Halay bəy, Çapıq Əmrah, Kəsəmənli surətləri də xüsusilə yadda qalır. Halay bəy həyatını maarifçilik sahəsinə həsr etmək istəyirdi. Ancaq ona imkan verilmir. O, qaçaqlara qoşulmağa məcbur olur. Kəsəmənli onu geri gətirir, ona maarif şöbəsini etibar etmək istəyirlər, ancaq namərdlər buna vicdansızcasına mane olurlar. Onu güllələnməyə göndərirlər. Kəsəmənli xəbər tutanda artıq gec idi. Kəsəmənli bu namərd hərəkətə görə Fətullayevi kabinetdə güllələyir. Özü də qaçaqlara qoşulmağa məcbur olur.

## Kürün gücü

"Dəli Kür"də olduğu kimi, "Ölən dünyam" romanında da Kür çayının obrazı canlanır, Kür çayı hər zaman bütün hadisələrdə sanki iştirak edir.

"Ölən dünyam" romanının tezliklə ekranlaşdırılması yaxşı olardı. Ən istedadlı rejissorlarımızı, ən istedadlı aktyorlarımızı bu işə cəlb etmək lazımdır. Belə olarsa, gözəl bir Azərbaycan filmi meydana gələr. Bədii nəsrimizi zənginləşdirən bu gözəl əsər milli kinomuzu da zənginləşdirər.

Cəsarətlə deyə bilərik ki, İsmayıl Şıxlı yaradıcılığı xalqımızın milli sərvətidir.

*Aytən RÜSTƏMZADƏ,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, dosent*

Dünya ədəbiyyatı

# Ölümə inad...



**Zirvəsində dayandığı şöhrət, ünvanına can atan hədsiz-hüdudsuz sevgi... Oxucuları təsirləndirən, ovsununa salan əsərləri... Bənzərsiz istedadı onu Nobel mükafatçısı da etmişdi. Bir yazıçıya daha nə lazım idi ki? Dünya Ernest Heminqueydən danışırdı...**
**Onun isə bunların heç biri eyninə deyildi. Ernest Heminquey ölümün ardınca düşmüşdü. Amma cəhdləri boşa çıxırdı. Ölüm atlı olmuşdu, o piyada...**

## Təbiətə və ədəbiyyata sevgi...

O, 1899-cu ilin 21 iyulunda Çikaqo yaxınlığındakı Ouk-Park şəhərciyində dünyaya gəlmişdi. Atası Klarens Edmont həkim, anası Qreys Holl opera müğənnisiydi. Ernest altı uşaqlı ailənin böyüyü idi. Kiçik yaşlarından atasının sevimlisiydi. Ernestin üç yaşı olanda birlikdə balıq tutmağa gedirdilər. Təbiəti sevməyi də atasından öyrənmişdi. Bir də kitablar Ernestin ən yaxın sirdaşı idi. On yaşında atasının şəxsi kitabxanasında oxumadığı kitab qalmadı. O, təbiət qədər ədəbiyyata da vurğun idi. Amma atası Ernesti həkim görmək istəyirdi, anası isə onun musiqiçi olmasını arzulayırdı. O, Ernesti violonçel sinfində oxutdurur, tez-tez kilsəyə apararaq xorda oxumağa məcbur edirdi.

On iki yaşında ikən ona babası 20 çaplı təklülə ov tüfəngi bağışladı. Bu hədiyyə ilə baba Ernestin qəlbində yerini möhkəmlətdi. Babasının ona danışdığı ov əhvalatları isə gələcəkdə dünya şöhrətli əsərlərə mövzu olacaqdı.

Ov həvəsi atasının sayəsində daha da güclənirdi. İlk hekayəsini bu təəssüratla yazdı. Ov mövzusunda qələmə aldığı əsərinin qəhrəmanını atasına, bir az da babasına bənzədirdi. Hekayənin sonunda qəhrəmanı ovda faciəli şəkildə həlak olurdu. Klarens eyni taleyi yaşadı. Ernest sanki 1928-ci ildə intihar edəcək atasının başına gələcəkləri ni qabaqcadan duyaraq yazmışdı həmin əsəri.

O faciəli gün illər sonra olacaqdı. Hələ ki gənc Ernest Heminquey macəra axtarır, həyatını təhlükələrə atırdı. Gördüklərini, düşüncələrini məşğul edən hadisələri əsərlərinin mövzusuna çevirirdi.

1916-cı ildə Şimali Miçiqan ştatına səyahətindən çoxlu mövzularla geri döndü. "Jinqan zəncirləri" adlı hekayəsini yazdı. Çox keçmədi ki, "Trapesiya" adlı məktəb qəzeti üçün reportajlar hazırlamağa başladı.

Məktəbi bitirəndə valideynlərinin ondan ilk tələbləri universitetdə təhsil almaq oldu. Deyilənlərə əməl etmək əvəzinə Kanzas Siti şəhərinə getdi. Yerli "Star" qəzetində işə düzəldi. Redaksiyanın tapşırığı ilə şəhərin baş xəstəxanası, dəmiryol vağzalı və polis şöbəsi yerləşən hissələrindən reportajlar hazırlayırdı. Oğruları, muzdlu qatilləri, fırıldaqçıları və başqa cinayətkarları görür, tanıyırdı. Hadisə yerindən hazırladığı operativ reportajlar Ernestə yalnız redaksiya rəhbərliyinin və oxucuların sevgisini qazandırmır, ona bədii yaradıcılığı üçün yeni mövzular da verirdi.

## Macəra axtarışında...

Orduda xidmət etmək üçün müvafiq qurumlara müraciəti uzun müddət nəticəsiz qaldı. Gözləri zəif idi. Ruhdan düşməyən Ernest, nəhayət, yaxın tanışı vasitəsilə "Qırmızı xaç"ın sürücüsü kimi İtaliyaya göndərilməyə nail oldu. Sanitar maşınının sürücüsü kimi cəbhə xəttinə göndərildi. 1918-ci il iyulun 8-də yaralı italiyalı snayperi döyüş meydanından çıxaran Ernesti avstriyalı əsgərlərin açdıqları atəş ölümlə qarşılaşdırdı. Həkimlər onu həyata qaytara bildilər. Zədələnmiş diz qapağını alüminium protezlə əvəz etdilər. Ordudan tərxis olundu. İtaliya cəbhəsində vuruşan ilk qəhrəman kimi bütün Amerika qəzetləri onun barəsində geniş yazılar dərc etdilər. Heminquey İtaliya kralı tərəfindən "Fədakarlığa görə" gümüş medal və "Hərbi xaç" ordeni ilə təltif olundu.

Bir il müharibədə aldığı yaraları müalicə etdirdi. 1920-ci ildə yenidən jurnalistika ilə məşğul olmaq üçün Toronto şəhərinə yollandı. "Toronto star" qəzetində işə başladı.

1921-ci il sentyabrın 21-də gənc pianoçu Hedli Riçardsonla evləndi. Birlikdə Parisə getdilər.

Heminquey ədəbiyyat sahəsində ilk böyük uğurunu 1926-cı ildə qazandı. "Və Günəş doğur" adlı romanı çap olundu. 1927-ci ildə "Qadınlarsız kişilər", 1933-cü ildə "Qalib heç nə almır" adlı seçilmiş hekayələri nəşr edildi. Qərbdə isə 1929-cu ildə qələmə aldığı "Əlvida silah" romanı onu daha çox şöhrətləndirdi.

Yazıçı kimi uğur qazananda atası hələ həyatdaydı. 1927-ci ildə çap etdirdiyi və xeyli qonorar aldığı "Kişilərsiz qadınlar" hekayələr toplusunu böyük ümidlə atasına göndərdi. Personajların dilindəki vulqarlıq, baş qəhrəmanın qonoreya xəstəliyindən əziyyət çəkməsi Klarens Edmontu əsəbiləşdirdi və o, kitabları geri qaytardı. Oğlunu danışdırmadı.

1930-cu ilin payızında düşdüyü avtomobil qəzasından ağır zədələr aldı. Müalicəsi yarım il çəkdi. Həmin müddətdə də ədəbi yaradıcılıqdan uzaqlaşmadı. 1932-ci ildə "Günortadan sonra ölüm" adlı roman yazdı.

Ovçuluğa marağı 1933-cü ilin sonlarında onu Afrikadakı Tanqanika gölü ətrafına apardı. Orada xəstələndi. 1934-cü ilin yanvarında vəziyyəti ağırlaşdı. Yazıçını İngiltərənin bölgədəki hospitalına apardılar. Bu dəfə də həkimlər onu çətinliklə sağaltdılar. Və həkimlər Ernestə ovçuluqla məşğul olmağı qadağan etdilər. Afrikaya ov səfəri təəssüratları barədə 1935-ci ildə "Afrikanın yaşıl təpələri" adlı kitabı çapdan çıxdı.

1937-ci ildə oxucularına "Olsun, olmasın" romanını təqdim etdi. Həmin illərdə dünyada baş verən siyasi proseslərlə yaxından maraqlanırdı. Bu maraq onu İspaniyaya gətirdi. Frankoya qarşı vuruşan respublikaçıların sırasına qoşuldu. "İspaniya torpağı" adlı sənədli filmin ssenarisini, "Beşinci kolonna" adlı pyesini də o vaxtlar yazdı. Döyüş bölgəsində amerikalı jurnalist Marta Hellhornla tanış oldu. Evə dönən Heminquey Marta ilə evləndi. 1940-cı ildə yazıçının İspaniyada vətəndaş müharibəsini əks etdirən "Kim üçün çalınır zəng" adlı romanı çap olundu.

1941-ci il... O, Baltimorda günlərini "Pilar" adlı şəxsi kateri ilə yenə balıq ovunda keçirirdi. Həmin il dekabrın 7-də Yaponiya ABŞ-ın Sakit okeandakı Perl-Harbor adasında yerləşən hərbi bazasına hücum etdi. Heminquey əks-kəşfiyyat qrupu yaradaraq "Pilar" adlı kateri ilə alman sualtı qayıqlarının və casusların üzə çıxarılması əməliyyatlarında iştirak etdi. Normandiyaya çıxarılan desant hissələrinə qoşuldu, kəşfiyyatda iştirak etdi. Fransa partizanlarına qoşulan Heminquey Paris, Belçika və Elzas uğrunda gedən döyüşlərin iştirakçısı oldu.

1949-cu ildə yenə Kubaya getdi. 1952-ci ildə "Qoca və dəniz" povestini yazdı. Bir il sonra bu əsərə görə beynəlxalq "Pulitser" mükafatı ilə təltif olundu. Həmin il Afrikaya gedən yazıçı təyyarə qəzasına düşdü. Yenə ölüm ondan yan keçdi. 1954-cü ildə ədəbiyyat sahəsində Nobel mükafatına layiq görüldü.

## Ölümlə oyun oynayan yazıçı

Dönə-dönə ölümlə üzləşmişdi. Qəzalarda, döyüş bölgələrində aldığı yaralar sağlamlığına zərbə vurmuşdu. 1950-ci illərin ortalarından depressiyadan və paranoyyadan əziyyət çəkirdi. Hər yerdə ABŞ-ın Federal Təhqiqat Bürosunun əməkdaşları tərəfindən izlənildiyini zənn edirdi. Xəstəxanaya aparıldı. Cərəyan verməklə edilən müalicənin nəticəsi ağır oldu. 20 seansdan sonra yaddaşını itirən Heminquey fikrini sərbəst ifadə edə, yaza bilmədi. Vəziyyətinin ağırlaşdığını görən yazıçı ölüm fərmanını verdi. Hətta necə intihar edəcəyini dəfələrlə dostlarına göstərdi. O, tüfəngin lüləsini çənəsinə dirəyir, tətiyi çəkirdi. Dostları Heminqueyin etdiklərini zarafat bilib, gülürdülər.

Qüssəli, keşməkeşli həyat yaşayan Ernest qadınları sevir, amma onlara inanmırdı. Anasını atasının intiharında günahlandırırdı. Buna görə onun dəfninə getmədi. 1960-cı ildə Kuba ətrafında baş verən hadisələr Heminqueyi ABŞ-a qayıtmağa vadar etdi. Aydaxo ştatındakı Ketçum şəhərində yaşamaq qərarına gəldi. Ancaq həyatın növbəti sınaqları burada da onu gözləyirdi.

Ölümə ilk cəhdi 1961-ci il aprelin 16-da oldu. Amma qonaq otağına girən Meri həyat yoldaşının tüfəngə patron qoyduğunu gördu. Yazıçının vəsiyyətnaməsi isə masanın üstündəydi. Meri çətinliklə Heminqueyi fikrindən döndərdi və təcili həkimi çağırdı. Ertəsi gün yazıçı yenidən intihar etmək istədi. O, qonaq otağının qapısını bağladı... Ancaq yaxınları bu dəfə də vaxtında xəbər tutdular. Silahı güclə ondan aldılar. Yenə Heminqueyi psixiatrik klinikaya müalicəyə göndərdilər. Ancaq qarabasmalar bitmirdi. Yazıçıya elə gəlirdi ki, onu izləyirlər. Müalicəsi iki aydan artıq davam etdi. Onu evə buraxdılar. Bir neçə gün sonra - 1961-ci il iyulun 2-də onu gözdən qoymayan həyat yoldaşı Merinin və digər yaxınlarının nəzərindən yayınan Ernest Heminquey ov silahı ilə alnına atəş açdı. O da babası və atası kimi həyatını intiharla başa vurdu. Yazıçı bu dəfə vəsiyyətnamə də yazmamışdı.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Dünya şöhrətli yazıçı və şairlərin həyatından maraqlı məqamlar



Məşhur rus yazıçısı **Lev Tolstoy** qraf olsa da, ən ağır kənd işlərini görməkdən böyük həzz alardı. Torpağı kotanla şumlamaq, dəryazla ot biçmək, odun doğramaq onun ən sevimli məşğuliyyətlərindən idi. Bir gün hərəkətsiz qalanda özünü pis hiss edər, yuxusuzluqdan əziyyət çəkərdi.

Ömrünün ahıl çağında isə o, hər şeydən uzaqlaşaraq tərki-dünya bir həyat yaşamağa başladı. Nə yazıçı dostları, nə dövlət xadimləri, nə də oxucuları ilə görüşürdü. Jurnalistlər isə onu ən çox təngə gətirən şəxslər idi. Yazarın onlara nifrəti demək olar ki, patoloji həddə çatmışdı.

Bir gün bir jurnalist çətinliklə ondan müsahibəyə razılıq aldı. Jurnalist ilk sualını verdi:

- Sizcə, dünyanın ən yazıq insanı kimdir?

Tolstoy dedi:

- Lev Nikoloyeviç Tolstoy.

Yazıçının cavabından heyrətlənən jurnalist səbəbini soruşdu. Tolstoyun cavabı belə oldu:

- Çünki hazırda dünyanın ən bədbəxt, yaramaz və sırtıq insanı ilə danışıram,

***



Rus şairi **Aleksandr Puşkin** şeirlərini yazarkən onun üçün xüsusi reseptlərlə hazırlanmış limonadı içməyi xoşlayarmış. Kamerdinerinin sözlərinə görə, şair gecə işləməli olanda mütləq əvvəlcədən içki tədarükünü görərmiş. Allaha sidq-ürəkdən inanan şair gələcəyi barədə deyilən sözlərə, o cümlədən dueldə öləcəyinə əmin imiş.

## "Bakı Metropoliteni" QSC müxtəlif təyinatlı, markalı nasosların və onların birləşdirici elementlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

LOT-1. Müxtəlif təyinatlı, markalı nasosların və onların birləşdirici elementlərinin satın alınması

**İştirak haqqı- 200 manat**

**Hesabın adı: BAKI METROPOLİTENİ QSC**
**Hesab nömrəsi (IBAN) :**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN 1402871431**
**Bankın adı : AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 21 avqust 2019-cu il saat 17:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 29 avqust 2019-cu il saat 16:00-a qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər.

İddiaçıların təklifləri 30 avqust 2019-cu il saat 16:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası "Azərenerji" ASC

### Yeni tikiləcək 385 MVt gücündə "Qobu" Elektrik Stansiyasının tikintisinə nəzarət və layihələndirilməsi üçün məsləhətçi xidmətlərin satın alınmasına dair

## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 500 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra https://etender.gov.az/ dövlət satınalmalarının vahid internet portalı vasitəsilə iştirakçı kimi qeydiyyatdan keçə bilərlər (Əlaqələndirici şəxs: Elçin İsmayılov, telefon: 598-26-96, 490-09-27, 598-05-56;).

İddiaçı şirkətlərin asan/elektron imzalarının olması zəruridir. Yalnız asan imzası, yaxud elektron imzası olan iddiaçı dövlət satınalmalarının vahid internet portalında qeydiyyatdan keçə bilər.

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq lisenziyalar, icazələr və digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 19 avqust 2019-cu il saat 10:00-a qədər, bank zəmanəti və tender təklifini isə 27 avqust 2019-cu il saat 10:00-a qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri 28 avqust 2019-cu il saat 10:00-da dövlət satınalmalarının vahid internet portalı vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Vergilər Nazirliyi dəftərxana və təsərrüfat mallarının satın alınması üçün

## *açıq tender elan edir*

**LOT 1: Dəftərxana mallarının satın alınması**
**LOT 2: Təsərrüfat mallarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı:**
**LOT 1: 300,00 AZN**
**LOT 2: 300,00 AZN**

Bank rekvizitləri:

- Satınalan təşkilatın adı: Azərbaycan Respublikası Vergilər Nazirliyi
- Satınalan təşkilatın VÖEN-i: 1300204521
- Hesab: AZ65CTRE00000000000002118401
- VÖEN: 1401555071
- Bank: Dövlət Xəzinədarlığı Agentliyi
- Kodu: 210005
- M/h: AZ41NABZ01360100000000003944
- S.W.İ.F.T: CTREAZ22
- Büdcə təsnifatının kodu: 142340
- Büdcə səviyyəsinin kodu: 7

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün müraciət;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **15.08.2019-cu il saat 18:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **23.08.2019-cu il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **26.08.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

E-şərtlər toplusunu Portal vasitəsilə tenderdə iştirak haqqı ödənildikdən sonra əldə edə bilərsiniz.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Vergilər Nazirliyi katriclərin satın alınması üçün

## *açıq tender elan edir*

**LOT 1: Katriclərin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı:**
**LOT 1: 300,00 AZN**

**Bank rekvizitləri:**

- **Satınalan təşkilatın adı: Azərbaycan Respublikası Vergilər Nazirliyi**
- **Satınalan təşkilatın VÖEN-i: 1300204521**
- **Hesab: AZ65CTRE00000000000002118401**
- **VÖEN: 1401555071**
- **Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
- **Kodu: 210005**
- **M/h: AZ41NABZ01360100000000003944**
- **S.W.İ.F.T: CTREAZ22**
- **Büdcə təsnifatının kodu: 142340**
- **Büdcə səviyyəsinin kodu: 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün müraciət;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **15.08.2019-cu il saat 18:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **23.08.2019-cu il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **26.08.2019-cu il saat 16:20-də** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

E-şərtlər toplusunu Portal vasitəsilə tenderdə iştirak haqqı ödənildikdən sonra əldə edə bilərsiniz.

***Tender komissiyası***

## DSX: Heyət üzvləri xilas edildikdən sonra "Şəbahəng" gəmisi batıb

İyulun 26-da saat 14:15-də Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinin Baş Komanda-Nəzarət Mərkəzinə İran İslam Respublikasının bayrağı altında üzən "Şəbahəng" quru-yük gəmisinin Lənkəran reydində sahildən 15 mil məsafədə batmaq təhlükəsi ilə üzləşməsi barədə məlumat daxil olub.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, cənub istiqamətində dövlət sərhədinin mühafizəsini həyata keçirən "Tufan" tipli sərhəd gözətçi gəmisi dərhal hadisə yerinə göndərilib.

Sərhəd gözətçi gəmisi hadisə yerinə çataraq xilasetmə əməliyyatına başlayıb, batan gəminin 9 nəfərdən ibarət olan ekipajı tam heyətlə xilas edilib.

Gəmi heyəti xilas edildikdən sonra saat 16.22-də gəmi batıb.

***"Azərbaycan"***

## Atəşkəs rejimi 19 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 19 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Sarıcalı, Acarlı, Xocavənd rayonunun Kuropatkino və Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## DSX: Sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri nəticəsində 19 kiloqramadək narkotik vasitə dövriyyədən çıxarılıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində keçirilmiş sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri nəticəsində 18 kiloqram 870 qram narkotik vasitəni və 45 həb psixotrop maddəni qanunsuz dövriyyədən çıxarıb.

İyulun 22-də Füzuli rayonunun Böyük-Bəhmənli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində qaçaqmalçılar tərəfindən dövlət sərhədindən narkotik vasitələrin keçirilməsinin qarşısı alınıb. Nəticədə sərhəd pozucuları polietilen paketlərdə ümumi çəkisi 13 kiloqram 670 qram olan heroin, tiryək və marixuana növündə narkotik vasitəni, həmçinin 45 həb psixotrop maddəni hadisə yerində ataraq geriyə qaçıblar.

İyulun 22-də DSX-nin Sahil Mühafizəsinin Lənkəran rayonu Şahağacı kəndi yaxınlığında yerləşən sahil nəzarət bölməsinin xidməti sahəsində 2 naməlum şəxsin sahil xətti yaxınlığında hərəkətləri diqqəti cəlb edib. Sərhəd naryadı onlara yaxınlaşarkən qaçmağa cəhd göstəriblər. Lakin sərhəd naryadı həmin şəxsləri saxlayıb. Onların əşyalarına baxış keçirilərkən içərisində ümumi çəkisi 5,2 kiloqram heroin və tiryək olan bağlama aşkarlanıb. Saxlanılmış şəxslərin şəxsiyyəti dəqiqləşdirilib. Onların Lənkəran rayon sakinləri 1965-ci il təvəllüdlü Hüseynov Arzuman Adil oğlu və 1973-cü il təvəllüdlü Əsgərov Mürsəl Nail oğlu olmaları müəyyənləşdirilib.

Hər iki fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi törəmə nəşrlərin hazırlanması və çapı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya işlərinin satın alınmasına dair

### *açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**

**LOT 1** - Dövlət ümumtəhsil məktəbləri üçün dərsliklərin brayl əlifbasında (şriftində) törəmə nəşrlərinin hazırlanması və çapı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya işləri

**LOT 2** - "Этюды о гуманитаризации образования" adlı kitabın törəmə (tərcümə) nəşrinin hazırlanması və çapı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya işləri

**Tenderdə Ermənistan Respublikası və BMT-nin Təhlükəsizlik Şurasının embarqo qoyduğu ölkələr istisna olmaqla bütün digər ölkələrdən iddiaçılar iştirak edə bilərlər.**

Tender iştirakçılarına təklif edilir ki, www.etender.gov.az- dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə - **100 (bir yüz) manat** məbləğində (heç bir halda geri qaytarılmayan) iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər:

**Bakı şəhəri, AZ1008, Xətai prospekti, 49,**
**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**VÖEN: 1500046011**
**DXA**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Hesab №: AZ30CTRE00000000000002168501**
**Fond 7 Büdcə gəlirlərinin təsnifatı 142340 sair daxil olmalar.**

**İddiaçılar ixtisas uyğunluğu göstəriciləri ilə bağlı aşağıdakı sənədləri və məlumatları 05 sentyabr 2019-cu il saat 17:00-dək Portal vasitəsilə təqdim etməlidirlər:**

**1)** Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olmasının təsdiqi kimi aşağıdakılar təqdim olunmalıdır:
- son başa çatmış maliyyə ilində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış və bank rekvizitləri.

**2)** Satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi aşağıdakılar təqdim olunmalıdır:
- dövlət qeydiyyatı haqqında şəhadətnamənin cari ildə təsdiq edilmiş surəti;
- hüquqi şəxsin dövlət reyestrindən çıxarışının cari ildə təsdiq edilmiş surəti;
- hüquqi şəxsin nizamnaməsinin cari ildə təsdiq edilmiş surəti.

**3)** Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, eləcə də Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmamasının təsdiqi kimi aşağıdakılar təqdim olunmalıdır:
- vergilərə və digər icbari ödənişlərə, o cümlədən sosial sığorta ödənişlərinə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq səlahiyyətli orqanın arayışı (tender elanından sonrakı tarixə);
- son başa çatmış maliyyə ilində maliyyə dövriyyəsini əks etdirən və səlahiyyətli orqanlar tərəfindən təsdiq olunmuş vergi bəyannaməsi.

**4)** Satınalma prosedurunun başlanmasından əvvəlki 5 (beş) il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmamasının təsdiqi kimi məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə məlumat təqdim olunmalıdır.

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirilir. Tenderin prosedur qaydaları, təkliflərin təqdim edilməsi və təkliflərin qiymətləndirilməsi və müqayisəsi əsas şərtlər toplusunda öz əksini tapır. Tender iştirakçısı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu, əsas şərtlər toplusunun məzmunu, o cümlədən iştirakçılar üçün təlimatlar, tender sənədlərinin formaları, müqavilə şərtləri, texniki şərtlər və s. ilə tanış olmalıdır. İddiaçının bu sənədlər və tender təklifi haqqında tam təsəvvürü, məlumatı olmaması və əsas şərtlər toplusunun tələblərinə uyğun gəlməyən təklif verməsi onun tender təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.

İddiaçılar iştirak etdiyi LOT(lar) üzrə yalnız bir tender təklifi verə bilər.

LOT üzrə azı üç təklif təqdim olunduqda həmin LOT üzrə tender proseduru baş tutmuş hesab edilir. Üçdən az təklif daxil olan LOT üzrə tender proseduru baş tutmamış elan edilir, Azərbaycan Respublikası Təhsil Nazirliyi həmin LOT üzrə tenderin davamından imtina edir.

İddiaçılar tender təkliflərini **12 sentyabr 2019-cu il saat 17:00-dək** Portal vasitəsilə Tender komissiyasına təqdim etməlidirlər. Tender təklifləri **13 sentyabr 2019-cu il saat 17:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən əsas şərtlər toplusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların təklif edilən qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

İddiaçıların tender təklifi, həmçinin tenderlə əlaqədar bütün yazışmalar və sənədlər Azərbaycan dilində həyata keçirilməlidir. Qiymət təklifləri Azərbaycan manatı ilə verilməlidir.

İşlər satınalma müqaviləsinin imzalanması tarixindən 9 ay ərzində başa çatdırılmalıdır.

Əlavə məlumat üçün tender üzrə əlaqələndirici şəxs Aynurə Novruz qızı Həsənovaya müraciət etmək olar. Əlaqə məlumatları:

Ünvan: Bakı şəhəri, Xətai prospekti, 49
Telefon: 599-11-55 (əlavə 5219)
599-11-55 (əlavə 5126)
Faks: 496-06-47
e-mail: aynura.hasanova@edu.gov.az

***Tender komissiyası***

Təkrar

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF)

### *açıq tender elan edir*

**LOT 1:** İnformasiya texnologiyaları sistemlərinə (saxlanc avadanlıqları, müraciətlərin balanslaşdırılma sistemi, professional iclas avadanlıqları, İP telefoniya, virtual platforma, elektron məktub, İT təhlükəsizlik sistemləri və s.) texniki xidmətin satın alınması;
**LOT 2:** Fiziki təhlükəsizlik sahəsində perimetrə giriş-çıxışı idarəetmə və binanın girişinə nəzarət sistemi (CPAM ) və video-müşahidə sisteminə (VSOM) (Support lisenziyaları/Smartnet daxil olmaqla) texniki xidmətin satın alınması;
**LOT 3:** Nessus lisenziyasının 1 il müddətinə uzadılmasının satın alınması;
**LOT 4:** Transformatorlara, aşağı və orta gərginlikli elektrik qurğularına texniki xidmətin satın alınması;
**LOT 5:** Generatorlara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 6:** Sutəmizləyici qurğulara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 7:** Su nasoslarına texniki xidmətin satın alınması;
**LOT 8:** Bayraqlara və bayraq dirəklərinə texniki xidmətin satın alınması;
**LOT 9:** Tərcümə xidmətlərinin (yazılı və sinxron) satın alınması;
**LOT 10:** Elektron sənəd dövriyyəsi üçün proqram təminatının satın alınması;
**LOT 11:** Fondun əməkdaşları üçün Bakı şəhəri ərazisində yerləşən idman-sağlamlıq mərkəzləri üzrə bədən tərbiyəsi və idman xidmətlərinin satın alınması.

ARDNF Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli, 240 №-li Fərmanı ilə yaradılmış dövlət təsisatıdır. ARDNF barədə məlumatlarla http://www.oilfund.az ünvanında yerləşən internet səhifəsində tanış olmaq olar.

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən açıq tender ARDNF üçün malların, işlərin və xidmətlərin satın alınmasını əhatə edir.

Tender prosedurları **02 sentyabr 2019-cu il yerli vaxtla saat 10:00-da,** ARDNF-in yerləşdiyi Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında tender təkliflərinin (zərflərinin) açılması ilə başlanacaqdır.

Tenderdə iştirak üçün təqdim ediləcək sənədlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- podratçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- podratçının ixtisas göstəricilərinə dair məlumat;
- podratçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;
- tender təklifi (tender təklifinin qiymətinin 1 faizi həcmində tender təklifinin təminatı (bank zəmanəti) ilə birlikdə).

Podratçılardan tələb olunan sənədlər (tender təklifi və təklifin təminatı istisna olmaqla) **22 avqust 2019-cu il yerli vaxtla saat 18:00-a** qədər faks, elektron poçt və ya adi poçtla, tender təklifləri (təklifin təminatı ilə birlikdə) isə hər LOT üzrə ayrı-ayrı zərflərdə olmaqla **30 avqust 2019-cu il yerli vaxtla saat 18:00-a** qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanda yerləşən ARDNF-ə təqdim edilməlidir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İştirak haqqı LOT 1, LOT 2, LOT 3, LOT 4, LOT 5, LOT 6, LOT 10 və LOT 11 üzrə 100 (yüz) manat, LOT 7, LOT 8 və LOT 9 üzrə isə 50 (əlli) manat məbləğində müəyyən edilmişdir. Tenderin əsas şərtlər toplusu tenderdə iştirak edən podratçılara müvafiq LOT üzrə iştirak haqqı göstərilən hesaba ödənildikdən sonra təqdim ediləcəkdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**SWIFT BIK: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Podratçıların səlahiyyətli nümayəndələri tender təkliflərinin (zərflərin) açılmasında iştirak edə bilərlər.

Tender ilə əlaqədar suallar və sorğular TSK2019@oilfund.az ünvanlı elektron poçta və ya (+994 12) 565-87-55 nömrəli faksa göndərilə bilər. Əlaqə telefonu: (+99412) 498-77-53, əlaqələndirici şəxslər: LOT 1 üzrə Ülvi Abdullayev (dax.: 1210), LOT 2 və LOT 3 üzrə Nailə Məmmədli (dax.: 9005), LOT 4, LOT 5, LOT 6, LOT 7, LOT 8 və LOT 9 üzrə Elşad Bağırov (dax.: 1010), LOT 10 üzrə Çəməngül Mustafayeva (dax.: 1001), LOT 11 üzrə Səidə Ağayeva (dax.: 8001), hüquqi məsələlər üzrə isə Kəmalə Rəhimova (dax.: 8023).

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

01 avqust 2019-cu il tarixdə baş tutması nəzərdə tutulan "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Dövlət Radiotezliklər İdarəsi üçün xüsusi loqolu markaların, kitabların və digər tanıtım məhsullarının satın alınması" üzrə açıq tenderin davamından imtina edilir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 05 iyul 2019-cu il tarixli sayında dərc edilmiş elan ilə əlaqədar bildiririk ki, 18 iyul 2019-cu il tarixdə keçirilmiş kotirovka sorğusu metodu ilə 221200- "Mətbəə xərcləri" maddəsi üzrə mətbəə və çap məhsullarının satın alınmasına dair Tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "Kəmər-Qaya" MMC elan olunmuş və 22 iyul 2019-cu il tarixdə 30 632,21 manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 25 aprel və 08 may 2019-cu il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elanlar üzrə keçirilən 17 LOT-dan ibarət açıq tenderin nəticələrinə əsasən **LOT 4.** Mətbəə işlərinin satın alınması üzrə "A-Dizayn" MMC qalib olmuşdur.

Qalib şirkətlə 24 iyul 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 23 aprel 2019-cu il və 07 may 2019-cu il tarixli saylarında dərc edilmiş elanlar ilə əlaqədar bildiririk ki, 10 iyul 2019-cu il tarixdə keçirilmiş açıq tender sorğusu metodu ilə 221100 - "Dəftərxana və təsərrüfat xərcləri" maddəsi üzrə dəftərxana mallarının satın alınmasına dair Tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "EUROSTAR STATİONERY" MMC elan olunmuş və 22 iyul 2019-cu il tarixdə 118 976,50 manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 29.03.2019-cu il tarixdə elan edilmiş printer, skaner və surətçıxaran aparatların təmiri, ehtiyat hissələrinin yenisi ilə əvəz olunması, katriclərin dolumu xidmətlərinin satın alınması prosedurunun qalibi "DCTEK" MMC müəyyən edilmişdir."Bakı Telefon Rabitəsi" MMC və "DCTEK" MMC arasında 03 iyul 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ABŞ-da 16 ildən sonra ölüm cəzası bərpa olunur

ABŞ hökuməti 16 ildən sonra federal səviyyədə ölüm hökmlərinin icrasını bərpa etmək qərarına gəlmişdir. Bu barədə Ədliyyə Nazirliyinin mətbuat xidməti xəbər verir.

Bildirilir ki, ilk olaraq uşaqların və ahılların qətlində təqsirli bilinən 5 nəfər edam ediləcək. Qeyd olunur ki, belə cinayətkarlar öz qurbanlarına işgəncələr vermiş və uşaqları zorlamışlar.

Ölüm cəzasına məhkum olunmuş məhbuslara psixotrop preparatının ölümcül dozası yeridiləcək.

Bundan əvvəl Amerika ştatlarının hakimiyyət orqanları edamla bağlı qərarı özləri müəyyənləşdirirdi. ABŞ-ın 23 ştatında ölüm hökmü qadağan edilmişdir.

## İran 9 hindistanlı dənizçini azad etdi

İran hökuməti Hörmüz boğazında saxlanmış neft tankerinin heyət üzvlərindən 9 hindistanlını azadlığa buraxmışdır. Bu barədə Hindistanın Xarici İşlər Nazirliyi xəbər verir.

Məlumatda bildirilir ki, Tehran Panama bayrağı altında üzən "MT Riah" neft tankerinin 9 dənizçisini azad etmişdir.

Hindistanın daha 21 vətəndaşı iki gəmidə girovluqda qalır. İran hökuməti Hindistanın Tehrandakı səfirliyinin əməkdaşlarına "MT Riah" və ələ keçirilmiş daha bir tanker - Britaniyanın "Stena İmpero" gəmisindəki soydaşları ilə görüşməyə icazə vermişdir.

Cəbəltariqdə saxlanmış İrana məxsus "Graçe 1" neft tankerinin heyət üzvlərindən 24 nəfəri hindistanlıdır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Ucar rayon prokuroru Elşən Abdullayevə atası

**ELMAN MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yasamal Rayon Məhkəməsinin sədri Araz Hüseynov və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nərimanov Rayon Məhkəməsinin sədri Tofiq Paşayev və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nərimanov Rayon İcra və Probasiya şöbəsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Beyləqan Rayon Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan


AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8906
Sifariş 2417
Qiyməti 40 qəpik